www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 26 may 2015-ci il Çərşənbə axşamı № 113 (6141) Qiymәti 40 qәpik

Xəbər

## Gecə klubunda qızları döyən çempiona cinayət işi açıldı

yazısı səh.2-də

Gündəm

### Binəqədidəki binanın yanmasında təxribat izi



Ekspertlər ciddi faktlar açıqladılar; **Zahid Oruc:** "Axı bir bina bir kibritdən yanacaq qədər asanlıqla alışmamalıdır!"

yazısı səh.11-də

### Milli Şura ilə BŞİH arasında "mitinq-mitinq oyunu"

yazısı səh.3-də

### Siyavuş Novruzov telekanalların savaşından danışdı

yazısı səh.4-də

### Qubad İbadoğlunun təşkilatı niyə qeydiyyata alınmadı...

yazısı səh.3-də

### "Gəncəbank" rəhbəri ilə bağlı baş prokurora müraciət olundu

yazısı səh.5-də

### Rəsulzadənin üç dildə "Biblioqrafiya"sı nəşr edildi

yazısı səh.6-da

### A.M.A.Y. Abdullanın vəkilindən hakimə hədəli etiraz

yazısı səh.12-də

### Sahibkar Azərbaycanı tərk edib Gürcüstanda aclığa başladı

yazısı səh.10-da

### İran hərbi obyektlərinin qapısını açır

yazısı səh.8-də

### Rusiya Ermənistan qoşunlarını Qarabağdan çıxartmağa hazırlaşır?

yazısı səh.13-də

### Avropa Oyunlarını ən yaxşı işıqlandıran KİV-lər mükafatlandırılacaq

yazısı səh.3-də

*Ekspert:*

### "Penoplast və poliuretan üzlüklər binalara vurmaq üçün deyil"

yazısı səh.15-də

## İstintaqa cəlb edilən iki oliqarx haqda yeni şok bilgilər

# HƏBSLƏR "BANK TECHNİQUE"YƏ ÇATDI

Cahangir Hacıyevin idarəçiliyində olan bankın rəhbərinin saxlanıldığı deyilir; bu bankdan da iri məbləğli, özü də heç bir girov qoyulmadan kreditlər götürülüb; Mərkəzi Bank rəhbəri Elmar Rüstəmov revanşa hazırlaşır




yazısı səh.9-da

# Rəsmi Bakı Avropa Birliyinə şərt qoydu

**Azərbaycan Riqa sammiti ilə bağlı xüsusi rəyini Brüsselə nazir Məmmədyarov Moskvada ikən göndərdi:** "Qarabağ məsələsində birmənalı mövqe sergiləyin!.."

yazısı səh.8-də



### Hacıbala Abutalıbov yanan binanı bərpa edəcək şirkətin adını açıqladı

yazısı səh.4-də



*Pənah Hüseyn:*

### "Diqqətin seçkilərə yönəldilməsi üçün müəyyən planlarımız var"

yazısı səh.6-da



### Kobud cavabı Abid Şərifovu iqtidarın qınağına tuş gətirdi

yazısı səh.10-da



# Leyla Əliyeva FAO-nun Azərbaycandakı xoşməramlı səfiri seçildi

**Leyla Əliyeva kənd təsərrüfatı, xüsusilə də ekologiya sahəsindəki xidmətlərinə görə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycandakı xoşməramlı səfiri seçilib. Bunu "Azərbaycan Respublikası Hökuməti ilə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) arasında Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin təsis edilməsi və Texniki Yardımın təmin edilməsi üzrə Saziş" və "FAO-Azərbaycan Tərəfdaşlıq Proqramı" Sazişinin imzalanması mərasimində kənd təsərrüfatı naziri Heydər Əsədov bildirib.**

"Hesab edirik ki, Leyla xanımın da bu prosesə qoşulması bizim FAO ilə əlaqələrimizin genişləndirilməsinə və daha da inkişaf etdirilməsində müstəsna rol oynayacaq. FAO-nun "Əlaqələndirmə və Tərəfdaşlıq ofisinin" dünyada 4 və ya 5 yerdə ofisi var. Bunlardan biri də Azərbaycandadır. Biz fəxr hissi duyuruq ki, Azərbaycanda həm FAO-nun regional ofisi, həm də "Əlaqələndirmə və Tərəfdaşlıq ofisi" açılıb", - deyə H. Əsədov bildirib.

# Volqoqradda azərbaycanlılar və ruslar arasında kütləvi dava olub

**Mayın 24-dən 25-nə keçən gecə Volqoqrad vilayətinin Volojskiy şəhərində azərbaycanlılar və ruslar arasında kütləvi dava olub. APA-nın "Komsomolskaya Pravda"ya istinadən verdiyi məlumata görə, şəhər sakini, 57 yaşlı kişi axşam evə qayıdarkən idarə etdiyi "QAZel" markalı avtomobilini başqa maşının yolunu kəsməsi səbəbindən qaraja daxil edə bilməyib.**

İddiaya görə, avtomobilin içərisində yaxınlıqda yaşayan 2 azərbaycanlı olub və onlar yüksək səslə musiqi dinləyib. Yerli sakin onlardan avtomobili geri çəkmələrini istəyəndə aralarında dava düşüb. 2 nəfər azərbaycanlı "QAZel"in sürücüsünü döyüb. Hadisə yerinə bir neçə yerli sakin gəlib, azərbaycanlılar da öz növbəsində öz tanışlarını çağırıblar. Dava zamanı hadisə yerində olan "KamAZ" markalı avtomobil yandırılıb və daha bir təqaüdçü döyülüb.

Hər iki şəxs travma ilə xəstəxanaya çatdırılıb. Hadisə yerinə polis əməkdaşları gəlib. Qəsəbənin 4 azərbaycanlı sakini polis bölməsinə aparılıb. Faktla bağlı xuliqanlıq maddəsi ilə cinayət işi başlanıb.

# Azərbaycanda ət kəsimi məntəqələri açılacaq

**"Ət kəsimi məntəqələrinin tikintisi əsas hədəflərimizdəndir". "APA-Economics"in məlumatına görə, bunu kənd təsərrüfatı naziri Heydər Əsədov deyib. "Bir neçə yerdə ət kəsimi məntəqələri tikilir. Yaxın 10 gün ərzində onlardan birinin açılışı olacaq. Bu, 8-10 mln. dollar dəyərində olan layihələrdən biridir. Hazırda 20-30 mln. dəyərində olan layihələr də həyata keçirilir", - deyə H.Əsədov əlavə edib.**

## Başsağlığı

**Rauf Arifoğlu və "Yeni Müsavat" qəzetinin kollektivi Aynur Camalqızına atası Camal Quliyevin vəfatından kədərləndiyini bildirir, dərin hüzünlə başsağlığı verir.**

***

**Rauf Arifoğlu və "Yeni Müsavat" qəzetinin kollektivi İbrahim, Cavid və Rüfət Hacıbəylilərə əzizləri Babaşov Tapdıqın vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)

Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Müsavat hakimiyyəti avrointeqrasiya istiqamətində addımlamağa səslədi

## Partiyanın Divanında Riqa sammitinin yekunları müzakirə edilib

**Müsavat Partiyası Divanının növbəti iclası keçirilib. Partiyanın mətbuat xidmətindən musavat.com-a verilən məlumata görə, Divan öz işinə mayın 19-da Bakıda çoxmərtəbəli binada yanğın nəticəsində həlak olan insanların xatirəsini yad etməklə başlayıb. Azərbaycan hakimiyyətinin faciə ilə bağlı ümumxalq matəmi elan etməməsi xalqın faciəsinə iqtidarın biganə münasibətinin göstəricisi kimi qiymətləndirilib. Eyni zamanda hökumətin belə fövqəladə hallara hazır olmadığı qeyd edilib.**




Daha sonra görülən işlər və qərarların icrası vəziyyəti müzakirə olunub.

22 may 2015-ci il tarixdə Müsavat Partiyasının üzvü, gənc fəal Nərgiz Yaqublunun anım tədbirinin keçirilməsi, Nərgizin əziz xatirəsinə hazırlanan film onun xatirəsinin əbədiləşdirilməsi işinə dəyərli töhvə kimi qiymətləndirilib. Xatirə filminin həmmüəllifləri İzolda Ağayeva və Aytən Fərhadovaya təşəkkür elan edilib.

28 May - Cümhuriyyət Günü münasibətilə Novxanıda M.Ə.Rəsulzadənin abidəsi önündə saat 12.00-da keçiriləcək bayram tədbirinə hazırlıqlarla bağlı məsələlər müzakirə olunub və müvafiq tapşırıqlar verilib.

Müsavat Partiyasının Biləsuvar rayon təşkilatının keçirdiyi 14-cü hesabat-seçki konfransı haqqında Divan üzvü Nemət Kərimlinin məlumatı dinlənilib. N.Kərimlinin verdiyi məlumata görə, konfransda Müsavat Partiyasının rəhbərliyi adından Divan üzvü Nemət Kərimli, MNTK sədri Sevinc Hüseynova, MNTK üzvü Xuraman Bağırova və Müsavat Partiyası başqanının müşaviri Hidayət İsmayılov iştirak edib. Konfrans növbəti iki il üçün rayon təşkilatının sədrini, sərbəst Şura üzvlərini və NTK üzvlərini seçib, nizamnaməyə əsasən seçkili orqanların formalaşdırıb və noyabrda keçiriləcək parlament seçkilərində 66 saylı Biləsuvar seçki dairəsindən Yusif Mehdinin Müsavat Partiyası adından deputatlığa namizəd kimi irəli sürülməsi haqda Müsavat Partiyasının Məclisinə təklif edilməsini qərarlaşdırıb.

21-22 may 2015-ci il tarixdə keçirilən Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" təşəbbüsünün Riqa Sammiti haqqında müzakirələr aparılıb. Azərbaycan hakimiyyətinin sammitdə ən yüksək səviyyədə təmsil edilməməsi uğursuz siyasi addım kimi qiymətləndirilib.

Divan hakimiyyətin uzun illər apardığı balans siyasətinin iflasa uğradığını, nəticədə Azərbaycanın siyasi arenada təklənləndiyini qeyd etməklə yanaşı, bu siyasətdən imtina edərək, avrointeqrasiya istiqamətində dərhal, ciddi addımların atılmasının zəruriliyini vurğulayıb.

Sonda cari məsələlərə baxılıb.

# Prokuror Suriyadan qayıdanlara 15 il iş istədi

**Dövlət ittihamçısı Suriyada hərbi təlim keçməkdə ittiham olunan 6 gəncin 15 il müddətinə həbs olunmasını istəyib. Proses mayın 25-də Ağır Cinayətlər Məhkəməsində keçirilib. Vəkil Elmar Süleymanovun AzadliqRadiosuna verdiyi məlumata görə, prosesdə vəkillər müdafiə çıxışı ediblər:**

«Biz bildirdik ki, bu cinayət işində gənclərin cinayətini təsdiq edən heç bir mötəbər sübut yoxdur. Onların Suriyaya getməkləri hələ o deməkdir deyil ki, onlar «İslam Dövləti» qruplaşmasına qoşulublar. İttiham olunanlardan Tural Həsənovun gözünün göstəricisi 7-dir. Bu o deməkdir ki, Tural eynəksiz öz barmaqlarını belə görə bilmir. Belə olan halda o, necə döyüşdə iştirak edə bilər».

Vəkilin dediyinə görə, bu cür cinayət əməlinə görə Suriyada ən çox 7 il həbs cəzası verilir. Belə olan halda prokurorun 15 il cəza istəməsi də anlaşılan deyil: «Bizim qanunvericiliyə görə, xarici ölkə ərazisində törədilmiş cinayətlə bağlı müəyyən edilmiş cəza həmin ölkədə müvafiq cəzadan ağır ola bilməz. Bütün bu halları təhlil edəndə görürük ki, məhkəmə çox çətin vəziyyətə düşüb. Ortada heç bir sübutu olmayan cinayət işi var. Elmar Süleymanov deyir ki, məhkəmədə müdafiə etdikləri şəxslərə bəraət verilməsini istəyirlər».

**Növbəti proses mayın 29-na təyin olunub.**

# Dövlət Sərhəd Xidməti külli miqdarda narkotiki müsadirə edib



**Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsi və qaçaqmalçılığa qarşı mübarizə tədbirləri davam etdirilir. Xidmətin mətbuat mərkəzindən APA-ya verilən məlumata görə, Astara rayonunun Qapıçıməhəllə kəndi ərazisindəki sərhəd zastavasının xidməti sahəsində Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları tərəfindən sərhəd boyu zonada keçirilən rejim tədbirləri nəticəsində 1 ədəd bağlamada külli miqdardan 7 kiloqram 045 qram narkotik maddə, o cümlədən 4 kiloqram 410 qram həşiş qətranı, 2 kiloqram 275 qram metofetamin və 360 qram heroin aşkar olunaraq götürülüb.**

Faktla bağlı araşdırma aparılır.

# Tovuzda bazar qalmaqalı - qarşıdurma

## Yerli rəhbərlik yeni açdığı bazara adam toplamaq üçün rayonda ictimai-siyasi sabitliyə xələl gətirir

**Tovuzda Nəsimi adına kənd təsərrüfatı bazarının köçürülməsinə olan cəhdlər ciddi narazılığa səbəb olub. 100-dən artıq satıcı küçəyə çıxaraq yeni bazara getmək istəmədiklərini bəyan ediblər. Onlar yerli hüquq-mühafizə orqanlarının müdaxiləsindən sonra iş yerlərinə qayıdıblar. Rayondakı qaynağımız deyib ki, Rusiyada yaşayan iş adamlarının adı ilə rayon rəhbəriyi Nəsimi adına bazarın 500 metrliyində özünə yeni bazar açıb. Satıcıları ora köçürmək üçün onlara ən müxtəlif yollarla təzyiq edir. Buna görə də satıcılar təzyiqlərə etiraz edib küçəyə çıxıblar. Sonra onları sakitləşdirib iş yerlərinə qaytarıblar.**

"Camaat dedi ki, biz bu bazardan çıxmayacağıq. Bizim çörəyimiz buradan çıxır. Bizi doğrasanız da çıxmayacağıq. Bazarın sahibi Teymur Bağırova təzyiq göstərirlər. Köhnə bazarda yerpulu 1 manatdır, təzədə 5 manat. Camaat buna görə ora getmək istəmir. Başqa bir tərəfdən də müştərilər köhnə bazara öyrəşib, təzəyə gedən olmayacaq" -deyə qaynağımız bildirib.

❑ E.HÜSEYNOV



# Gecə klubunda qızları döyən çempiona cinayət işi açıldı

**"Famous" karaoke-klubda qızları döyən çempion İsa Əzizov Cinayət Məcəlləsinin xuliqanlıq (221-ci) maddəsi ilə məsuliyyətə cəlb olunub. İşi araşdıran Yasamal Rayon Polis İdarəsinin 27-ci polis bölməsinin təhqiqatçısı Müşfiq Cəbrayılov milli.az-a açıqlamasında bildirib ki, toplanmış materiallar istintaqa göndərilib. Zərərçəkmişlərin izahatı alınıb. İ.Əzizovu isə hələ də tapmaq mümkün olmayıb.**

Hadisə zamanı hücuma məruz qalan Diana Babayeva Milli.Az-a açıqlamasında Rusiya vətəndaşı olduğunu və başına gələnlərlə bağlı səfirliyə müraciət edəcəyini vurğulayıb.

Sayt məlumat əldə edib ki, İ.Əzizovun barəsində Səbail rayonunda da hələ davam edən cinayət işi var.

Onu da əlavə edək ki, İ.Əzizov hazırda yüksək vəzifə tutan generalın bacısı oğludur. İ.Əzizov kikboksinq idman növü ilə məşğuldur və yüksək nəticələrə sahibdir. O, ötən gecə karaoke klubda Elvina Əliyevanı döyüb, sonra isə "Gellandevagen" markalı maşına qoyaraq aparmaq istəyib.

# Yanan binanın sakinlərinə şəxsiyyət vəsiqəsi verilib

**Bakıda yanan binanın sakinlərinə şəxsiyyət vəsiqəsi verilib. Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən APA-ya verilən məlumata görə, ölkə prezidentinin tapşırığına əsasən, DİN Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinin və Binəqədi Rayon Polis İdarəsinin Qeydiyyat və şəxsiyyət vəsiqəsi şöbəsinin əməkdaşları tərəfindən mayın 19-da baş vermiş yanğın nəticəsində şəxsiyyəti təsdiq edən sənədləri məhv olan vətəndaşlara yeni vəsiqələrin verilməsi ilə bağlı səyyar xidmət keçirilib. Səyyar xidmət zamanı müraciət etmiş 25 nəfər şəxsiyyət vəsiqələri ilə təmin olunub. Bu istiqamətdə tədbirlər davam etdirilir.**

Qeyd edək ki, mayın 19-da Azərbaycan paytaxtında çoxmərtəbəli binada baş verən yanğın nəticəsində 15 nəfər ölüb. Binada əsaslı təmir və yenidənqurma işləri aparılması üçün 3 milyon manat ayrılıb.

YENİ MÜSAVAT
N 113 (6141) 26 mart 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Fond jurnalistlər və KİV üçün müsabiqələr elan etdi

## Avropa Oyunlarını ən yaxşı işıqlandıran media qurumları mükafatlandırılacaq

**Mayın 25-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib. Müşahidə Şurasının sədri Umud Mirzəyev iclası giriş sözü ilə açaraq gündəlikdəki məsələlər barədə məlumat verib:**



1. Fondun 22 iyul - Azərbaycan Milli Mətbuatının yaranmasının 140 illik yubileyi münasibətilə keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinin elanının müzakirəsi və təsdiqi;

2. "I Avropa oyunlarını ən geniş və dolğun işıqlandıran KİV" mövzusunda müsabiqənin qaydalarının müzakirəsi və təsdiqi.

3. Cari məsələlər.

Müşahidə Şurasının sədri, gündəlikdə olan birinci məsələ barədə məlumat verən fondun icraçı direktoru Vüqar Səfərli milli mətbuatın 140 illik yubileyinin ölkə mediası üçün əlamətdar hadisə olduğunu bildirərək bu münasibətlə növbəti ənənəvi müsabiqənin KİV-lərə Dövlət Dəstəyi Konsepsiyasında əksini tapmış 19 istiqamət üzrə keçiriləcəyini bildirib. Vüqar Səfərli müsabiqənin şərtlərinin olduğu kimi saxlanılmasını, hər istiqamət üzrə I yer üçün 500 manat olmaqla 1, II yer üçün 400 manat olmaqla 2, III yer üçün 300 manat olmaqla 3 mükafatın nəzərdə tutulduğunu təklif edib. İcraçı direktor, ümumilikdə 19 istiqamət üzrə 114 nəfər jurnalistin mükafatlandırılacağını diqqətə çatdırıb.

Sonra birinci məsələ ətrafında müzakirələr aparılıb. Müşahidə Şurası üzvlərindən Vüqar Rəhimzadə, Əflatun Amaşov və Rəşad Məcid təklifi yüksək dəyərləndirərək belə müsabiqələrin jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi və sosial müdafiəsinin yaxşılaşdırılması baxımından əhəmiyyətini diqqətə çəkiblər. Müzakirələrin yekununda müsabiqənin 2015-ci il mayın 27-dən iyulun 9-dək 19 istiqamət üzrə keçirilməsi barədə qərar qəbul olunub.

Gündəlikdəki ikinci məsələ barədə məlumat verən V.Səfərli iqtisadi sahədə dinamik inkişaf edən, demokratikləşmə, fikir, söz və mətbuat azadlıqlarının təminatı sahəsində böyük uğurlara imza atan Azərbaycanın son illər beynəlxalq tədbirlərin mərkəzinə çevrildiyini bildirib. Vüqar Səfərli iyun ayında Bakıda keçiriləcək I Avropa Oyunlarının ölkəmizin beynəlxalq nüfuzunun daha da yüksəldilməsi baxımından əlamətdar hadisə olduğunu vurğulayaraq bu mötəbər idman tədbirinin yerli və beynəlxalq ictimaiyyətə çatdırılması baxımından KİV-in üzərinə ciddi vəzifələrin düşdüyünü qeyd edib. O, KİV-in Avropa Oyunları barədə daha dolğun məlumatlar hazırlaması və yaymasını stimullaşdırılmaq məqsədilə fondun "I Avropa Oyunlarını ən geniş və dolğun işıqlandıran KİV" mövzusunda keçirəcəyi müsabiqə barədə ətraflı məlumat verib.

Mayın 26-dan iyulun 1-dək davam edəcək müsabiqədə qəzetlərlə yanaşı, televiziyaların, informasiya agentliklərinin və xəbər saytlarının da iştirak edəcəyini deyən Vüqar Səfərli I yer üçün 1 KİV olmaqla, 30 000, II yer üçün 2 KİV olmaqla, 15 000, III yer üçün 2 KİV olmaqla, 10 000 manat məbləğində mükafatın nəzərdə tutulduğunu bildirib.

Müzakirələr zamanı Müşahidə Şurası üzvlərindən - Əflatun Amaşov, Rəşad Məcid, Vüqar Rəhimzadə və Müşfiq Ələsgərli belə bir müsabiqənin təşkilini ölkəmiz üçün müstəsna əhəmiyyət kəsb edən mötəbər idman tədbirinə sanballı töhfə kimi dəyərləndiriblər. Müzakirələr zamanı bu fikir də xüsusi qeyd olunub ki, müsabiqə I Avropa Oyunlarının KİV-də daha geniş və operativ şəkildə işıqlandırılmasını təmin etməklə yanaşı, jurnalistlərin yaradıcı əməyini stimullaşdıracaq. Müzakirələrin sonunda müsabiqə qaydaları yekdilliklə qəbul olunub.

Cari məsələlərin müzakirəsi zamanı icraçı direktor Vüqar Səfərli fondun yaxın dövr üçün fəaliyyət istiqamətləri barədə məlumat verib.



# ADR Hərəkatı niyə qeydiyyata alınmadı...

## Qubad İbadoğlu: "İradlar nəzərə alınmaqla, qurumun sənədlərini yaxın günlərdə yenidən qeydiyyata təqdim edəcəyik"

**Ədliyyə Nazirliyinin Hüquqi şəxslər və vətəndaşlıq vəziyyəti idarəsi Qubad İbadoğlunun rəhbərlik etdiyi Azərbaycan Demokratiya və Rifah Hərəkatı (ADR) İctimai Birliyinin qeydiyyatla bağlı təqdim etdiyi sənədləri geri qaytarıb. Bu barədə ADR-in sədr müavini Ellada Məmmədli deyib. Onun sözlərinə görə, hərəkatın qeydiyyata alınmamasına səbəb kimi sənədlərdə texniki qüsurların olduğu göstərilir.**

E.Məmmədli musavat.com-a bildirib ki, ADR-in qeydiyyata alınması üçün iyun ayında yenidən Ədliyyə Nazirliyinə müraciət olunacaq: "Bununla bağlı müzakirələrimiz olub. ADR Hərəkatının qeydiyyata alınmamasına səbəb sənədlərin tərtibatında yol verilmiş texniki səbəbdir. Bu yaxınlarda texniki səbəbi aradan qaldıraraq yenidən qeydiyyat üçün müraciət edəcəyik. Sənədlərin bəndlər üzrə tərtibatında müəyyən yerdəyişmədəki texniki səhv olmuşdu. Gələn ay müraciət etməyi düşünürük. Yəqin ki, 1 ay müddətinə cavab verilər".

**ADR-in rəhbəri Qubad İbadoğlu** isə musavat.com-a açıqlamasında deyib ki, ADR Hərəkatının dövlət qeydiyyatı ilə bağlı sənədlər "Qeyri-hökumət təşkilatları *(ictimai birliklər və fondlar)* haqqında" və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunlarına müvafiq surətdə hazırlanıb və Ədliyyə Nazirliyinə təqdim edilib: "Sənədlərin hazırlanması və təqdimatı prosesi müvafiq qanunvericiliyin tələblərinə uyğun həyata keçirilsə də, Ədliyyə Nazirliyi ADR Hərəkatını qeydiyyatda almaqdan imtina edib və bəzi iradlarla sənədləri geri qaytarıb. Həmin iradlar nəzərə alınmaqla, ADR Hərəkatının sənədlərini yaxın günlərdə yenidən qeydiyyata təqdim edəcəyik. Bu istiqamətdə fəaliyyətimizi Azərbaycan qanunvericiliyi əsasında davam etdirmək niyyətindəyik. Əgər yenidən qeydiyyatdan imtina olunarsa, o halda ADR Hərəkatının İdarə Heyətinin qərarları əsasında növbəti addımlarımızı müəyyənləşdirəcəyik. Əslində baş verənlər gözlənilən idi. Çünki ictimai birliklərin və hərəkatların qeydiyyatı haqqında qərarlar siyasi əsasda verilir".

**ADR-in qeydiyyata alınmamasına keçmiş partiyasından da rəy gəlib. Müsavat Partiyasının başqan müavini Elman Fəttah bildirib ki, son 15 ildə heç bir siyasi partiya, son 5 ildə heç bir QHT qeydiyyata alınmayıb:** "Hakimiyyətin siyasi iradəsi budur. Hansısa QHT-nin qeydiyyata alınmaması yox, alınması diqqətçəkən olardı".

Qeyd edək ki, Azərbaycan Demokratiya və Rifah Hərəkatı qeydiyyata alınması ilə əlaqədar mart ayında Ədliyyə Nazirliyinə müraciət etmişdi.

❑ **RÖYA**

# Milli Şura ilə BŞİH arasında "mitinq-mitinq oyunu"

## Aksiya ilə bağlı üçüncü dəfə eyni vəziyyət təkrarlandı

**Bakı Şəhər İcra Hakimiyyəti Milli Şuranın mayın 31-nə təyin etdiyi mitinqlə bağlı müraciətə dünən cavab verib. BŞİH-in cavabında bildirilir ki, "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarına riayət olunmaqla 30 may 2015-ci il tarixdə saat 15.00-dan 17.00-dək Bakı şəhəri, Yasamal rayonu, M.Seyidov küçəsi, 3155-ci məhəllədə yerləşən Yasamal Rayon İdman-Sağlamlıq Kompleksinin stadionunda (keçmiş "Məhsul" stadionu) mitinqin keçirilməsinə razılıq verilir.**



Mitinqin təşkilatçılarından isə xahiş olunur ki, "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanuna əsasən ayrı-seçkiliyə, ədavətə və ya zorakılığa çağırışlarla müşayiət olunan, milli, irqi və ya dini ədavəti təbliğ edən və təhqiredici şüarlardan istifadə olunmamasına ciddi nəzarət edilsin. Həmçinin gələcəkdə planlaşdırılan mitinqlərin şənbə günlərinə təyin olunması məqsədəuyğun olunduğu bir daha qeyd olunub.

Milli Şura isə BŞİH-in bu cavabının əslində 31 maya təyin olunmuş mitinqə razılıq verilməməsi anlamı daşıdığını bəyan edib. Milli Şuradan bəyan edilib ki, BŞİH artıq üçüncü dəfədir mitinqlə bağlı müraciətə cavabında Konstitusiyanı və «Sərbəst toplaşmaq azadlığı haqqında» Qanunu pozur.

Xatırladaq ki, bundan əvvəl Milli Şura bir dəfə mayın 3-də mitinq keçirmək üçün BŞİH-ə müraciət edib. BŞİH isə mitinqin şənbə günü- mayın 2-də keçirilməsinə razılaşdığı barədə təşkilatçılara cavab verib. Milli Şura bu cavabın qanunsuz olduğunu bəyan edib və mitinqi keçirməyib.

İkinci dəfə Milli Şura mayın 24-də mitinq keçirilməsinə razılıq verilməsi üçün BŞİH-ə məktub ünvanlayıb. BŞİH bu dəfə də mitinqin bazar günü deyil, şənbə günü-mayın 23-də keçirilməsinə etiraz etmədiyi barədə təşkilatçılara cavab göndərib. Milli Şura bu dəfə də cavabın qanunsuz olduğunu əsas göstərərək təklifi qəbul etməkdən imtina eləyib.

Beləliklə, may ayında üçüncü dəfədir ki, mitinqlə bağlı eyni vəziyyət təkrarlanır-Milli Şura bazar gününə mitinq təyin edir, meriya mitinqə şənbə günü icazə verildiyini bildirir, təklif qəbul olunmur və mitinq də keçirilmir.

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 113 (6141) 26 may 2015



# "Hamımız günahkarıq". Yox bir, quzuqulağı...

Samir SARI

**Başqa ölkələri bilmirəm, bizim ölkədə qəribə bir adət var: bir qalmaqallı, ajiotaj doğuran hadisə baş verəndə hamı olaya görə konkret günahkar axtararkən mütləq kimsə bir oxumuş, gəzmiş, müdrik şəxs ortaya çıxır, məsuliyyəti 9 (bəzən isə 50) milyon həmvətənimizin arasında bölür.**

Məsələn, olur ki, bir cinsi azlıq nümayəndəsi cəmiyyətdən dışlanmasına, sürəkli təhqirlərə məruz qalmasına, ailə xoşbəxtliyinə mane olunmasına etiraz olaraq özünü öldürür, üstündən gün keçməmiş bir ziyalı şəxs bəyan edir: "Onu biz öldürdük".

Adam özündən quşqulanır, fikirləşirsən ki, ey dadi-bidad, bəlkə nə vaxtsa o binəsib gənclə bir audensiyada olmusan və ona kobudluq etmisən, ikrahla baxmısan, bəlkə alçaltmısan, bəlkə hüquqlarını tapdamısan və s. Fikirləşirsən, tapa bilmirsən. Bir az yüngülləşməkdəykən, başqa bir ağıllı və analitik təfəkkürə malik şəxs bu məsələyə dair birinci bəyanat yayanın sözünə qüvvət verir: "Bəli, onu biz öldürdük. Onun günahı hamımızın boynundadır. Biz onu öz laqeydliyimizlə, öz heteroseksual baxışlarımızla, cinsi çoxluq olmağın basqısıyla öldürdük".

Belə olanda adam lap xəcalət çəkir, normal insan olmasından, cinsi çoxluğa məxsusluğundan utanır.

Yaxud olur ki, bir yazıçı spirtli içkini çox istemal etməsi səbəbindən qaraciyərini becərir və xəstəxanaya düşür. Yenə, türkün sözü, ünlü düşünürlər, bəyan edirlər: "Onu biz serroz elədik". Bir az araşdırırsan, görürsən, əslində düz deyirlər, yazıçının canı sağ olanda məhz onlar hər gün məclis qurub onu içirdirmişlər.

Elə bilirsən, bu, bir səmimi etirafdır. Amma yox, az sonra məlum olur ki, dostlar özlərini nəzərdə tutmurlar, bütövlükdə cəmiyyəti nəzərdə tuturlar. Guya ki, ədibin çoxlu içməsinə səbəb cəmiyyəti sarmış problemlərmiş, nə bilim, xalqın istedadlı yazarı başa düşməməsiymiş, cürbəcür qlobal-qlobal dərdlərmiş. Yenə fikirləşirsən ki, sən onunla heç vaxt badə yoldaşı olmamısan, ona görə də onun səhhətində yaranan problemlərdə məsuliyyət payın yoxdur. O ki qaldı qlobal dərdlərə, onun da əziyyətini hamı çəkir, yazıçı bu dərd-səri ürəyinə, qara ciyərinə çox salmazdı, canı da salamat olardı.

Xüləs, ölkədə hər nə iş baş verirsə, mütləq onun məsuliyyətini hamıyla bölən adamlar tapılır. Bir zorlama məsələsi istisnadır. Bax, onda heç kim çıxıb zorlanana qahmar durmur, demir ki, "onu biz zorladıq", əsasən, "onun gecə vaxtı orda nə işi vardı" deyirlər, məsələ bitir.

Budur, Bakıda dəhşətli yanğın baş verib, 15 nəfər həlak olub, dövlət büdcəsi zərərə düşüb, insanlara maddi ziyan dəyib, cəmiyyət psixoloji travma alıb. Hazırda hamı günahkar axtarır və konkret günahkarlar da ortadadır. Sadəcə, yaxalarından yapışıb ortalığa çəkmək lazımdır.

Ancaq yenə də o yanğına görə məsuliyyəti 9 milyon nəfərin üzərinə şələləmək təşəbbüsləri var. Məsələn, məşhur jurnalist Mirşahin yazır:

"Bu evin üzü qaradır. Onu biz yandırdıq. Bəzən laqeydlik, bəzən yola ver getsinlik, bəzən, diqqətsizlik, bəzən rüşvət hesabına nələrəsə göz yummaq, bəzən səhlənkarlıq, bəzən məsuliyyətsizlik və bütün bu səbəblərin hamısının cəmi ilə".

Stop, qardaş, stop. O evi mən yandırmamışam. Bu xüsusda laqeydlik etməmişəm, nəinki bəzən, hətta heç vaxt "yola ver getsin" fəndinə əl atmamışam, rüşvət hesabına nələrəsə göz yummamışam, səhlənkarlıq etməmişəm, məsuliyyətsizliyə yol verməmişəm. Mən, eləcə də səkkiz milyon doqquz yüz doxsan doqquz min insanın o binanın yanmasında heç bir rolu yoxdur.

Diqqətsizliyi də 3-5 yüz adam edib, səhlənkarlığı da, laqeydliyi də. Rüşvəti isə 3-5 adam alıb, elə "yola ver getsin"i də onlar deyiblər. Onları tapıb ortalığa çıxarmaq çətin deyil. Hamısının adları, soyadları, iş yerləri, ev ünvanları bəllidir. Tutursan, deyirsən, cavab ver.

Yoxsa "ay hamımız günahkarıq", vay, "o binanı biz yandırdıq", oy, "o yanğına görə hamımız məsuliyyət daşıyırıq" , bunlar boş sözlərdir. Bu cür davam eləsə, bir də görəcəyik ki, dəhşətli yanğına görə tutulub 10 il məhbəsdə yatmalı olan adam durub onu ittiham edənlərə deyir, məni mühakimə etməyə haqqınız yoxdur, bu işdə hamınız günahkarsınız, budur, Mirşahin də şahiddir.

# Hacıbala Abutalıbov yanan binanı bərpa edəcək şirkətin adını açıqladı

## "Bakı Şəhər İcra Hakimiyyətinə ümumilikdə bu məsələləri həll etmək üçün ilkin məbləğ olaraq 5 milyon manat ayrılıb"



Hacıbala Abutalıbov

**Binəqədi rayonunda yanan binanın hansı şirkət tərəfindən təmir olunacağı və bu işlərə nə zaman yekun vurulacağı sualı mətbuatın gündəmindən düşmür. Xüsusən də baş nazirin müavini Abid Şərifovun bu haqda jurnalistlərə açıqlama verməkdən imtina etməsi mətbuatı bir az da məsələnin üzərinə getməyə sövq edir.**

"Yeni Müsavat" olaraq bu məsələyə aydınlıq gətirmək və yanan binanın sakinlərinin durumu ilə bağlı son məlumatları öyrənmək üçün aparılan işlərə birbaşa nəzarəti həyata keçirən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbovla əlaqə saxladıq.

**H.Abutalıbov bildirdi ki, Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən sözügedən ərazi tam nəzarətdədir:** "Tender vasitəsilə bir şirkət seçilib, həmin şirkət tərəfindən bina yüksək səviyyədə təmir olunacaq. Narahatçılığa heç bir əsas yoxdur. Mənzil Kommunal Təsərrüfat Birliyi birbaşa sifarişçidir. Nazirlər Kabinetinin qərarı ilə birbaşa müqavilə bağlanılması təklif olunub. Ona görə də biz "Aqrar tikinti" MMC hazırda həmin 16 mərtəbəli binanı təmir edirik. Bu şirkət tenderin qalibi olub. Nazirlər Kabinetinin qərarı var. Bakı Şəhər İcra Hakimiyyətinə ümumilikdə bu məsələləri həll etmək üçün ilkin məbləğ olaraq 5 milyon manat ayrılıb. Tikinti-təmir işlərinin aparılması üçün bu şirkətlə müqavilə bağlanıb və hansı işi görəcəklərsə o qədər də pul ödəniləcək. Ancaq bu vəsait təkcə təmir-bərpa üçün deyil, sakinlərə vəfat edənlərə, yaralananlara, kirayə evlərə görə kompensasiyaların ödənilməsi də buraya daxildir. Kompensasiyalar ödəniləndən sonra qalan vəsait tikintiyə sərf olunacaq".

**İcra başçısı bildirdi ki, 5 milyon manatdan əlavə 150 min manat da binanın təmiri layihəsi üçün ayrılıb, layihə artıq hazırdır:** "Biz çalışırıq ki, binanın təmiri 3- 5 aydan artıq vaxt aparmasın. Bu, maksimum müddətdir. Buraya binanın təmiri, bərkitmə işləri, evlərin təmiri, mənzillərin mebellərlə təminatı və sair daxildir. Tez bir zamanda sakinləri evlərində yerləşdirəcəyik".

**Sakinlərin müvəqqəti yerləşdirilməsinə gəlincə, BŞİH başçısı bildirdi ki, dövlət tərəfindən ayrılan yerlərdə insanlar həm yemək, həm də geyimlə təmin olunurlar:** "Goradil qəsəbəsində ayrı-ayrı koteclərdə yaşayanlar üçün yemək də, geyim də təşkil olunur. Buzovna sanatoriyasında yaşayanlar da lazım olan hər şeylə, gündəlik yeməklə təmin olunur. Öz qohumlarının evində yaşayanlara da kirayə pulu verilir, qohum evində olsa da bu pul onlara ödənilir. Kirayə yaşayanlara isə ev sahibləri ilə bağladıqları müqavilə əsasında hansı qiymətə razılaşıblarsa, həmin kirayə haqqı da ödənilir. Bununla bağlı hər hansı narahatçılıq yoxdur".

**BŞİH başçısı qeyd etdi ki, hazırda kirayənişinlərlə mənzil sahibləri arasında narazılıq yaşanır və biz onları da yoluna qoymağa çalışırıq:** "Bu gün onlardan ikisi gəlmişdi, kirayənişin 5 min manat aldı, ev sahibi isə 15 min manat. Onlar bunu öz aralarında razılaşdırdılar. Eləsi də var ki, ana evin sahibidir, oğlu ilə gəlini orada yaşayır. Onların arasında da narazılıq var. Biz onlarla danışdıq ki, öz aralarında razılaşsınlar, pulu yarı-yarıya bölək, hərəsi 10 min manat alsın. Biz bütün tərəflərlə fərdi qaydada görüşüb onlarla razılaşırıq. 6 nəfər narazı olan var. Onlardan ikisi həll olunub, 4-ü qalıb. Onlarla da görüşəcəyik".

### "Bütün üzlüklər FHN-ə göndərilib"

Müsahibimin sözlərinə görə, görülən işlərlə bağlı hər gün ölkə başçısına məlumat verilir: "Ölkə başçısının tapşırığı ilə şəhərdəki üzlüklərin hamısı sökülür. Bu gün demək olar ki, tam qurtarmalıyıq. Sabahdan Bakı Şəhər İcra Hakimiyyətinin tərtib etdiyi memarlıq üslubunda hamısı rənglənəcək və ya üzlənəcək. Əgər bina ağ daşlı binadırsa, onlar təmizlənəcək, ağ daşın üzərinə üzlük vurmağın heç bir mənası yoxdur. Digər üzlüklər də gətirilib, amma BŞİH başçısı olaraq onların hamısını Fövqəladə Hallar Nazirliyinə ekspertizaya göndərmişəm, onların rəyi olmadan üzlük vurulmayacaq. Biz çalışacağıq ki, bu proses tez yekunlaşsın".

**Hacıbala Abutalıbov sakinlərə mənəvi dəstək olmasından da danışdı:** "Hər gün sakinlərlə görüşürük, onların müəyyən çətinlikləri var, psixoloji baxımdan gərginlik keçiriblər. Biz onlarla söhbət edirik. Dünən mən 20 nəfərlə görüşdüm, sadəcə, söhbət etdik, onların problemlərini dinlədim. Onlar qaldıqları yerdən razıdırlar. Mən istəyirəm ki, onlar danışıb sakitləşsinlər. Mən onların dərdlərinə şərik olmaq istəyirəm. Çünki bu facıə hamımızındır.

❑ Nərgiz LİFTİYEVA

# Siyavuş Novruzov telekanalların savaşından danışdı

## "Buna kimsə qarışmalı deyil, özləri bilərlər"

**Televiziya kanalları arasında rəqabət artıq etik prinsiplər çərçivəsindən çıxıb. Telekanallar arasındakı son olaylar, ATV-nin aparıcısı Mətanət Əliverdiyevanın Binəqədidə baş verən yanğınla bağlı efirdə işlətdiyi ifadə və bundan sonra ATV və ANS telekanallarının əməkdaşları arasındakı başlayan söz dueli cəmiyyəti də narazı salıb.**



Siyavuş Novruzov

Jurnalistlərin çalışdığı keçmiş kanallara qarşı ittihamlar irəli sürməsi və ya telekanalın keçmiş işçisi ilə bağlı yaranan fürsətdən istifadə edərək onu "vurması" kimi hallar jurnalist etikasına da ziddir. Bu baxımdan telekanallar arasındakı son qalmaqal mətbuatda tənqidlərə məruz qaldı.

Adətən belə durumlarda hökumət nümayəndələri də televiziya kanallarını tənqid edib, onların yayım siyasəti ilə bağlı tövsiyələr verirdilər. Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev hər dəfə məqalələrində efirdə baş verənləri tənqid edirdi. Bəs görəsən, son qalmaqaldan sonra iqtidardan telekanallara yayım siyasəti ilə bağlı hər hansı xəbərdarlıq və ya tövsiyə gələcəkmi?

**Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan Yeni Azərbaycan Partiyasının icra katibinin müavini, millət vəkili Siyavuş Novruzov bildirdi ki, özəl televiziyaların işinə müdaxilə etmək doğru deyil:** "Onlar hamısı özəl televiziyalardır. Özləri bilərlər. İki qəzet də bir-biri ilə mübahisə apara bilər, bir-birinin əleyhinə yaza bilərlər. Partiya sədrləri də bir-biri ilə nə isə haqqında mübahisə edirlər, buna kimsə qarışmalı deyil, özləri bilərlər".

**S.Novruzovun fikirlərinin əksinə olaraq Milli Televiziya və Radio Şurasının (MTRŞ) sədr müavini Qafar Cəbiyev APA-ya açıqlamasında telekanallar arasındakı qalmaqalı sərt tənqid edib, bildirib ki, bəzi telekanalların reytinq naminə baş vermiş hadisəni özlərinin təbliğatına çevirmək cəhdləri də açıq şəkildə hiss olunur:** "Belə hallara heç nə ilə bəraət qazandırmaq olmaz. Nəzərə almaq lazımdır ki, tamaşaçı və dinləyici özü hansı televiziya və ya radionun verilişlərinin daha yaxşı olduğunu, hansı aparıcının daha peşəkar və ya qeyri-peşəkar olduğunu hər kəsdən daha yaxşı bilir".

**Q.Cəbiyev iş yerini dəyişərək bir kanaldan başqa kanala keçən bəzi insanların yaradıcılıqla məşğul olmaq əvəzinə, daha çox qisasçılıq yolu tutduğunu söyləyib:** "Faciə ilə üz-üzə qalan insanları xilas edən, bunun üçün həyatını təhlükəyə atan neçə-neçə fədakar insan olub. Yaxşı olardı ki, media ekstremal şəraitdə qəhrəmanlıq göstərmiş insanları cəmiyyətə təqdim etsin. Təəssüf ki, əlində mikrofon və ya kamera olan insanlardan bəziləri tez çaşır, hədlərini aşır, onlar üçün yaradılmış efir imkanlarından sui-istifadə edərək yetənə yetir, yetmədiyinə də daş atır. Hansısa səbəblər ucbatından iş yerini dəyişərək bir kanaldan başqa kanala keçən bəzi insanlar həyatlarının, yaradıcı fəaliyyətlərinin yeni və daha maraqlı səhifələrini yaratmaq əvəzinə, daha çox qisasçılıq yolu tuturlar. Ola bilsin ki, onları nə zamansa, kimlərsə incik salıb. Amma iki insan arasındakı inciklik iki telekanal arasındakı intriqa üçün əsas ola bilməz və olmamalıdır".

❑ Nərgiz LİFTİYEVA

# "Gəncəbank" rəhbəri ilə bağlı baş prokurora müraciət olundu

## Natalya Kərimova hamiləliyinin pozulması cinayətinin də araşdırılmasını tələb edir

**"Gəncəbank" rəhbəri Pərvanə Novruzovanın əməllərinin araşdırılması üçün baş prokuror Zakir Qaralova müraciət olunub. Müraciət müəllifi Natalya Kərimova yazır ki, P.Novruzovanın ona olmazın işgəncələr verərək mülklərini zorla əlindən alması barədə ölkə başçısına məktub ünvanlayıb. Bundan sonra Gəncə Şəhər Prokurorluğundan məktub alıb: "Etdiyim müraciətə Gəncə Şəhər Prokurorluğu 28 aprel 2015-ci ildə 52547 nömrəli məktubla cavab verib. Məktubun ikinci abzasında qeyd edilir ki, mülklərim əlimdən alınarkən etdiyim şikayətdən sonra materiallar toplanıb.**

Material əsasında 9 oktyabr 2001-ci ildə Pərvanə Cəmil qızı Novruzova barəsində Cinayət Məcəlləsinin 158.2-ci (hüquqi şəxslərin binalarının (otaqlarının) toxunulmazlığını pozma) maddəsinə əsasən cinayət işi başlanıb və istintaq aparılıb. Məktubda qeyd olunur ki, guya rəhbəri olduğum "Gözəl Esmira" firması ilə "Gəncəbank" arasında o vaxtkı pulla 270 milyon manat kredit müqaviləsi bağlanmış və girov kimi "Gözəl Esmira" firmasının mülkiyyətində olan Gəncə şəhəri, Xətai küçəsində yerləşən "Nataşa" gözəllik salonu girov qoyulub. Halbuki həmin gözəllik salonu firmanın yox, mənim şəxsi mülkümdür. Buradan belə nəticəyə gəlmək olur ki, Gəncə Şəhər Prokurorluğunda istintaq edilən həmin cinayət işi, Pərvanə Novruzovanın diktəsi ilə və təqdim etdiyi saxta sənədlər əsasında birtərəfli qaydada araşdırılıb".

**Müraciət müəllifi yazır ki, Gəncə prokurorluğundan aldığı məktubda qeyd edilən cinayət işinin taleyi barədə məlumat yoxdur:** "Məktubun axırıncı abzasında qeyd olunub ki, Pərvanə Novruzovanın rəhbərliyi ilə mütəşəkkil cinayətkar dəstənin birgə fəaliyyəti nəticəsində əmlakımızın quldurluq və hədə-qorxu ilə tələb etmə yolu ilə əldə edilməsi barədə göstərdikləriniz istintaq gedişində yoxlanılıb. Həmin xüsusat öz təsdiqini tapmadığından 28 dekabr 2001-ci il tarixli qərarla həmin hissədə cinayət işinin icraatına xitam verilib. Ancaq Cinayət Məcəlləsinin 158.2-ci maddəsi üzrə açılmış cinayət işi üzrə əməl P.Novruzova tərəfindən hazırda davam etdirilsə də (davam edən cinayətlər) Gəncə Şəhər Prokurorluğu bu əmələ hələ də hüquqi qiymət vermir".

**Müəllif baş prokurora müraciətlə özünə qarşı digər cinayətlərin də araşdırılmadığını qeyd edir:** "2001-ci ildə Gəncə hüquq-mühafizə orqanları Pərvanə Novruzovanın təzyiq və təsirləri ilə şikayətlərimə baxmadı. Pərvanə Novruzova mənə qarşı real təhdidlər, hədə-qorxu ilə tələbetmə cinayətini törədib, ağır bədən xəsarəti yetirib. Mənim və azyaşlı qızlarımın həyatına real təhlükə *(zorlamaya edilən cəhd)* olduğundan 2002-ci ilin yanvar ayında ölkəni tərk etmək məcburiyyətində qalmışam. 2002-ci ilin fevralında P.Novruzova və Gəncə Şəhər Prokurorluğu əlbir olaraq mənim gələcəkdə Azərbaycana qayıtmağımın qarşısını almaq məqsədi ilə barəmdə uydurma cinayət işi (CM-in 320 və 296-cı maddələri ilə) başladıblar. Pərvanə Novruzovanın mənə qarşı zor tətbiq etməsi və işgəncə verməsi nəticəsində hamiləliyim pozulub. Bununla bağlı həkimlərdən müvafiq arayış da alınıb".




**"Hörmətli Zakir Qaralov, Siz baş prokuror təyin olunduqdan sonra Məmmədəli Novruzov prokurorluq işçisinə yaraşmayan hərəkət etdiyi üçün orqandan qovulub"**

**Müraciətdə qeyd olunur ki, Gəncə Şəhər Prokurorluğunun və Pərvanə Novruzovanın təzyiq və təsirləri nəticəsində hamiləliyinin pozulmasını təsdiqləyən tibbi arayış saxtalaşdırılıb:** "Məni müayinə edən həkim təzyiq nəticəsində guya mənə verdiyi sənədin saxta olduğunu etiraf edib. Nədənsə həmin həkimin əməlinə Cinayət Məcəlləsinin 320.1-ci maddəsi ilə nəzərdə tutulan əməl kimi qiymət verilməyib. Bu onu deməyə əsas verir ki, bu ittiham mənə qarşı uydurma olub. Bu, Azərbaycana gəlməyimin qarşısını almaq məqsədilə irəli sürülən qanunsuz və əsassız ittihamdır. Hamiləliyin pozulması, bildiyimiz kimi, ağır bədən xəsarəti hesab olunur. Hamiləliyimin pozulması həkimin təqdim etdiyi arayış və mənim etdiyim şikayət əsasında araşdırılmalı, bunun müəyyən edilməsi barədə ekspertiza təyin edilməli olduğu halda o zaman Gəncə Şəhər Prokurorluğu öz səlahiyyət həddini aşaraq heç bir fakta və sübuta söykənmədən mənim hamilə olmamağım qənaətinə gəlib. Gəncə Şəhər Prokurorluğu Pərvanə Novruzova barəsində CM-in 126.1-ci maddəsi ilə cinayət işi başlamaq əvəzinə mənə qarşı saxta, uydurma ittiham irəli sürüb. Bütün bunlara həmin dövr Kəlbəcər Rayon Prokurorluğunda işləmiş və Pərvanə Novruzovanın qardaşı olan Məmmədəli Novruzov tərəfindən "yekun hüquqi nəticələr" təşkil edilib".

**Müraciət müəllifi yazır ki, artıq M.Novruzov prokurorluq orqanlarından qovulub:** "Cənab baş prokuror! Siz baş prokuror təyin edildikdən sonra bu şəxslərin əməllərinə düzgün qiymət verərək bu cür neqativ fəaliyyətlə məşğul olduğu üçün və prokurorluq əməkdaşına yaraşmayan hərəkətlərə yol verdiyi üçün tərəfinizdən Məmmədəli Cəmil oğlu Novruzov prokurorluq orqanlarından xaric edilib. Mənim kimi onlarla şəxslərə qarşı "Gəncəbank" ASC-yə rəhbərlik edən qardaş-bacı tərəfindən fiziki zorakılıq göstərilib və ictimai təhlükəli hərəkətlərə dəfələrlə yol veriblər.

Əvvəlki müraciətimdə qeyd etdiyim kimi və hazırda mövcud olan saxta sənədlərdən də görünür ki, "Gəncəbank" ASC ( P.Novruzova) faktiki kimsəsizliyimdən və özlərinin üstünlüyündən istifadə edərək mənə məxsus gözəllik salonunu və 2 mənzilimi ələ keçirməyə nail olub. Bir çox ağır cinayətlər törədərək məsuliyyətdən kənarda qalıblar, hətta törətmiş olduğu əməllərə görə barəmdə cinayət təqibinə başlamağa da nail olub ki, ölkəyə bir daha qayıda bilməyim..."

**Müraciət müəllifi qeyd edir ki, P.Novruzovanın ona qarşı cinayəti bu gün də davam edir. Buna görə də baş prokurordan P.Novruzovanın əməlinə hüquqi baxımdan qiymət verilməsini istəyir:** "Pərvanə Novruzova Gəncə Şəhər Prokurorluğuna hazırda da təsir etdiyini nəzərə alaraq işin Ağır Cinayətlərə Dair İstintaq İdarəsində istintaq edilməsini Sizdən xahiş edirəm. İnanıram ki, onun bu hərəkətlərinə "Gəncəbank" ASC-nin səhmdarı olan hörmətli Qənbər Şəmşir oğlu da haqq qazandırmaz".

❑ E.HÜSEYNOV

# "Hamı bilir ki, o villalar kimindir"

## Eldar İbrahimov: "Qanunsuzluğa yol vermiş vəzifəli şəxslər daha çox müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılmalıdırlar"

**Milli Məclisin Aqrar siyasət komitəsinin dünən keçirilən iclasında torpaqların qanunsuz istifadə edilməsinə və zəbt olunmasına görə Cinayət və İnzibati Xətalar məcəllələrinə nəzərdə tutulan dəyişikliklərlə əlaqədar qanun layihələrinin müzakirəsi aparılıb.**



Eldar İbrahimov

"Qafqazinfo" xəbər verir ki, komitə sədri **Eldar İbrahimov** çıxışında qeyd edib ki, sovet dövründə torpaqların zəbt olunmasına görə ən azı 3 ilədək azadlıqdan məhrum etmə nəzərdə tutulurdu: "Sonralar bu məsələlər bir qədər yumşadıldı və bununla da qanunsuzluqlar, hərc-mərcliklər başlandı, cəzasızlıq mühiti yarandı, kim ürəyi nə istədi, onu da etdi. Ona görə də indi qanunvericilikdə belə bir sərtləşdirmənin nəzərdə tutulması çox vacibdir. Məsələn, Cinayət Məcəlləsinin 314-2-ci maddəsinə təkilif olunan dəyişiklikdə qeyd olunur ki, vəzifəli şəxs tərəfindən dövlətin müstəsna mülkiyyətində olan və özgəninkiləşdirilməsi qanunla qadağan edilən torpaq sahələrinin bələdiyyə mülkiyyətinə və ya xüsusi mülkiyyətə verilməsi haqda qərar qəbul etmə 3 ildək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə, 5 ildən 8 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılacaq".

**E.İbrahimov hesab edir ki, qanunsuzluğa yol vermiş vəzifəli şəxslər daha çox müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılmalıdırlar:** "Axı hamı bilir ki, vəzifəli şəxslərin icazəsi olmadan bu işlər görülə bilməz. Ona görə də onlarla bağlı qanunvericilikdə sərtləşdirmənin tutulması çox vacib addımdır. Elə bir neçə gün öncə Binəqədi rayonunda baş vermiş dəhşətli yanğınla, faciə ilə bağlı çıxışında da dövlət başçısı bu məsələlərə, torpaqların zəbt olunmasına toxundu, çox yaxşı qeyd etdi ki, bu cür qanunsuzluğa yol vermiş adamlar, vəzifəli şəxslər cəzalandırılmalıdır. O, çıxışında hətta "Dostluq" parkı deyilən ərazidə qanunsuz şəkildə villa tikilməsinə toxunaraq deyib ki, oradakı ərazini zəbt edən və qanunsuz villa tikənlərin kimliyi də bilinmir və bunlar aradan qaldırılmalıdır. Mən də cənab prezidentin dediklərinin tərəfdarıyam. Vəzifəli şəxsin icazəsi olmadan kim gedib torpaq zəbt edə, orada, ev, villa tikə bilər? Ancaq cənab prezidentin də dediyi kimi, kimdən soruşursan, deyir mənimki deyil, mənim xəbərim yoxdur... Axı necə xəbərin yoxdur, necə xəbərin olmaya bilər? Axı əslində hamı bilir ki, o villalar, o qanunsuz, hasarlanmış torpaqlar kimindir. Həmin villalar göydən gəlib yerə düşməyiblər ki? Həmin villaların kimlərə məxs olduğunu onların sahibləri də, elə o ətrafda yaşayan sadə insanlar da bilirlər. Amma onlar, qanunsuzluğa yol verənlər özlərini bilməməzliyə, görməməzliyə vururlar ki, bunların da qarşısı alınmalıdır".

# "Binaların üzlənməsinin qiyməti 10 dəfə şişirdilir"

**Parlamentin keçmiş üzvü, iqtisadçı-ekspert Nazim Məmmədov hesab edir ki, Bakıdakı çoxmərtəbıli binaların üzlənməsi 3-5 milyon manata başa gəlir. Sabiq deputat "Amerikanın səsi" radiosuna müsahibəsində deyib ki, bu işlərin real xərci 1 kv.metrə görə 10-15 dollardır, lakin sənədlərdə bu məbləğ 10 dəfə şişirdilir. N.Məmmədov qeyd edib ki, üzlük küçə tərəfdən binaların fasadına vurulur, həyətdə isə binanın görünüşü dəyişməz qalır. Bütün bunlar onu göstərir ki, bu sahədə korrupsiya çiçəklənir.**



Nazim Məmmədov

YENİ MÜSAVAT
N 113 (6141) 26 may 2015



# İndi seçim anıdır

**Azər RƏŞİDOĞLU**

**Avropa İttifaqının Riqada keçirilən "Şərq tərəfdaşlığı" Sammitində Ukrayna və Gürcüstandan fərqli olaraq, Azərbaycanın ərazi bütövlüyü tanınmadı. Elə bu amil də onu deməyə əsas verir ki, Qarabağla bağlı uzun müddət eyni prinsiplər ətrafında sonsuz danışıqlar aparmaq mümkün deyil. Hazırkı status kvoda razılaşdırılmamış iki əsas prinsip var. Uzun illər ərzində aparılan danışıqlar bu iki sadə suala cavab tapa bilmədi - Dağlıq Qarabağın statusu necə və hansı formatda olması və Laçın koridorunun sərhədləri və statusu necə müəyyən ediləcək?**

Adıçəkilən prinsiplər ətrafında sonsuz sayda variantlar mövcud ola bilməz. Ortada razılaşdırılmamış məsələlərlə bağlı üç-dörd təklif var və bu variantlardan biri seçilməlidir. Əgər həmin təkliflərdən biri seçiləcəksə, Qərb siyasətçilərinin də dediyi kimi razılaşma ola bilər.

Bu il, ümumiyyətlə, Qarabağ danışıqlarında dinamikliyin olmasıyla seçildi. Bu il Qarabağ danışıqlarının gedişinə əsas təsir edən amil Ukraynada baş verən "məxməri inqilab" və separatçı rejimlərin yaranması oldu. Bu olaylar, ümumiyyətlə, separatçı rejimlərə olan münasibəti bir qədər dəyişdi. Qərb ölkələri və eləcə də münaqişə tərəfləri belə separatçı rejimlərin siyasi hakimiyyətlər və regionlar üçün nə qədər böyük təhlükə olduğunun şahidinə çevrildilər.

Ukrayna olaylarından sonra məlum oldu ki, münaqişənin uzun müddət dondurulmuş halda qalmasından hansısa mərhələdə xarici dövlətlər istifadə edə bilər. Rusiyanın Ukraynaya təcavüzündən sonra həm Ermənistan, həm də Azərbaycan prezidentləri konfliktin həllinin zəruriliyini milli dövlətçilik baxımından vacib olduğunu gördülər. Qərb dövlətləri fikirləşirdi ki, Qarabağ konflikti kimi dondurulmuş münaqişə onların regiondakı maraqlarının gerçəkləşməsinə mane olmur. Amma məlum oldu ki, Rusiya istənilən vaxt dondurulmuş münaqişələrdən Qərbin bütün maraqlarını zərbə altına qoymaq üçün istifadə edə bilər.

Krım böhranından sonra regiondakı enerji layihələrinin gerçəkləşdirilməsinin səmərəliliyi də şübhə altına qoyuldu və bu da ciddi faktordur. Sözsüz ki, belə faktorlar Qərbin mövqeyinə ciddi təsir etdi.

Rusiyanın Ukraynadakı işğalçılıq siyasətindən sonra artıq ABŞ və Avropa həll olunmamış münaqişələrin mümkün qədər tez çözülməsində daha çox maraqlıdır.

Rusiya isə Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin əleyhinə çıxış etməsə də, onun tam həllini mümkün edən addımların atılmasının qarşısını aldı.

Avropa İttifaqının Riqada keçirilən "Şərq tərəfdaşlığı" Sammitində yekun bəyanatında Azərbaycanın ərazi bütövlüyünün tanınmasının pərdəarxası baş qəhrəmanı da elə Rusiya oldu.

Riqaya getmək lazım idi. Qərb Rusiya və müttəfiqlərinə münasibətdə sərt mövqe sərgiləyir. Ruslar Ukraynanın başına açdıqları oyundan sonra beynəlxalq aləmdə imiclərini darmadağın etdilər.

Digər tərəfdən, Kremlin Krım və Donestk separatçı rejimlərinin müstəqilliyinin tanınması çağırışları Riqada Aİ-nin sərgilədiyi mövqe arasında ciddi bir ziddiyyət yaranır. Bu amil son nəticədə Dağlıq Qarabağ münaqişəsinin həllinə ciddi təsir göstərə bilər. Siyasi iradə nümayiş etdirilməzsə, münaqişənin həllini gözləmək xeyli çətin olacaq. Odur ki, seçim etmək zamanı gəlib. Rusiya, yoxsa Qərb?..

# Avropa Oyunlarından sonra siyasi meydan qaynayacaq

## Pənah Hüseyn: "Diqqətin seçkilərə yönəldilməsi üçün müəyyən niyyətlərimiz var"

**Parlament seçkilərinə təxminən 5 ay qalsa da bu cür mühüm bir proses ölkə gündəmində deyil. Hazırda ölkə gündəminə Avropa Oyunları, son dövrlər bir sıra iri iş adamlarının həbsi, yanğın hadisəsi birnömrəli mövzu kimi oturub. Parlament seçkiləri sanki unudulub, elə bil 5 aydan sonra bu ölkədə seçkilər keçirilməyəcək.**

Bu mövzuda fikirlərini öyrəndiyimiz Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn bildirdi ki, hakimiyyətin siyasi kursunun əsas hədəflərindən birini vətəndaşların ölkənin siyasi həyatında iştirakını minimuma endirmək və seçkilərin əhəmiyyətini aşağı salmaq, seçkilərə tam bir əhəmiyyətsiz münasibətin yaranmasına nail olmaq təşkil edir: "Qəbul edilməlidir ki, bu istiqamətdə ciddi uğurlara nail ola biliblər. Cəmiyyətdə seçki ab-havasının olmaması situasiyası da əsas etibarilə bu cür şüurlu və məqsədyönlü siyasətin nəticəsidir. Lakin son vaxtlar baş verən hadisələr hakimiyyətin siyasi kursunun əleyhinə olaraq cəmiyyətdə siyasi müzakirələrin aparılmasına, seçkilərin vacibliyi qənaətinin formalaşmasına yol açır. Çünki istər Avropa Oyunlarına münasibət, istərsə də son dövrdə hadisələr, son dövrlər ölkədə maliyyə korrupsiyası ilə meydana çıxan faktlar, yanğın hadisəsi ilə bağlı aparılan işlər artıq birbaşa siyasi mahiyyət kəsb eləməkdədir. Əhalinin, xalqın diqqətini iqtidarın yuxarıda qeyd etdiyimiz siyasi kursunun əleyhinə olaraq, məhz siyasətə cəlb eləməkdədir. O baxımdan yanğın hadisəsinin və hadisə ilə bağlı ortaya çıxan çox dəhşətli mənzərənin əslində seçkiləri gündəmə gətirməsini şərtləndirdiyi qənaətindəyəm.



Aydın məsələdir ki, bu seçkilərdə seçici bu amilləri nəzərə alacaq. Son dövrdə ölkənin xarici siyasi kursu ilə bağlı olan ciddi narahatlıqlar var. Ölkənin milli təhlükəsizlik konsepsiyasında bir neçə yerdə əsas hədəflərdən birinin avrointeqrasiya olduğu qeyd edilib, Müdafiə Doktrinasında bununla bağlı müddəalar var. Lakin son vaxtlar baş verən proseslər, Azərbaycanın Avropa Birliyinin Riqada keçirilən sammitinə hakimiyyətin münasibəti, bundan sonra bir sıra beynəlxalq təşkilatların rəhbərləri tərəfindən Azərbaycanın bu prosesdən təcrid edilməsi, bu cür sammitlərdən uzaqlaşdırmaq kimi fikirlər səsləndirilməsi də ciddi bir narahatlıq yaratmaqdadır.

Əhalinin son aylarda maliyyə durumunun da aşağı düşməsi, bahalaşma prosesinin getməsi də qarşıdakı parlament seçkilərinin önəmini vətəndaş üçün artırmaqdadır".

**P.Hüseynin fikrincə, Avropa Oyunlarının ölkə gündəminə oturması parlament seçkilərinin medianın gündəmində əsas yer tutmasına təsir göstərsə də partiyalarda seçkilərə hazırlıq işləri dayanmayıb, gedir:** "Konkret olaraq bizim də təmsil olunduğumuz "Azadlıq-2015" seçki bloku namizədlərini müəyyənləşdirməkdə davam edir, seçki platforması, seçki şüarları hazırlanır. Resursların məhdudluğu, hakimiyyətin yaratdığı manelər əlbəttə ki, normal seçki hazırlıqlarının aparılmasına, seçkilərin ölkə gündəmində indidən bir nömrəli mövzu olmasına əngəllər törədir. Bununla belə, mən yaxın vaxtlardan, xüsusən də Avropa Oyunlarından sonra ölkədə siyasi fəallığın artacağı qənaətindəyəm. Həmin situasiyada bizim də müəyyən taktiki dəyişikliklərimizin olması mümkündür".

**Hər keçən günün müxalifətin seçkilərə hazırlığı baxımından gecikməsi olduğuna gəlincə, P.Hüseyn dedi ki, hazırlığın qanunla müəyyənləşmiş çərçivələri, vaxtı var. Nə qədər ki, bu qanun qüvvədədir, partiyalar buna əməl etməyə məcburdur. Seçkilərə rəsmi start verilməsinə isə qanunla hələ xeyli vaxt var:** "Problemlərdən biri hakimiyyətə müxalifətdə olan partiyalar arasında münasibətlərin dərin əməkdaşlığa imkan verməmdiyi səviyyədə olmasıdır. Münasibətlər o vəziyyətdədir ki, əməkdaşlıq istiqamətində addımların atılması, təşəbbüslərin irəli sürülüb reallaşdırılması çox çətin görünür. Partiyalar seçkilərə rəsmi start verilənə qədər, yəni hazırkı məqamda bu problemlərin həllinə yönəlik cəhdlər eləməlidir. Bu, demokratik düşərgənin seçki hazırlığı, ölkədə cəmiyyətin diqqətinin seçkilərə yönəldilməsi baxımından çox önəmli bir addım olardı. Bu istiqamətdə bizim müəyyən niyyətlərimiz var. Bu niyyətlərin reallaşdırılmasını Avropa Oyunlarından sonra gündəmə gətirmək lazım olacaq. Amma hazırlıq işləri oyunlar dövründə də aparılacaq. Avropa Oyunları keçirilirsə, bu, o demək deyil ki, siyasi fəaliyyət, siyasi proses donacaq".

**❑ Etibar SEYİDAĞA**

# Rəsulzadənin üç dildə "Biblioqrafiya"sı nəşr edilib

**Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 97-ci ildönümü ərəfəsində görkəmli dövlət xadimimiz M.Ə.Rəsulzadənin üç dildə (Azərbaycan, Türkiyə türkçəsi və rus) "Biblio qrafiyası" nəşr edilib. Biblioqrafiyanı nəşrə hazırlayan, redaktoru və giriş məqaləsinin müəllifi, tarix elmləri doktoru, "Məhəmməd Əmin Rəsulzadə Mərkəzi"nin sədri Nəsiman Yaqubludur.**

Kitabın nəşri ilə bağlı N.Yaqublu dedi: "Azərbaycan Xalq Cümhuriyyətinin banisi və Milli Qurtuluş Hərəkatımızın böyük ideoloqu M.Ə.Rəsulzadənin üç dildə "Biblioqrafiyası"nın nəşri XX əsr tariximizin öyrənilməsinə ciddi töhfədir. Qeyd edim ki, bundan əvvəl mənim Azərbaycan və rus dillərində "Məhəmməd Əmin Rəsulzadə ensiklopediyası" kitablarım nəşr edilmişdi. Hazırda həmin ensiklopediya Türkiyədə nəşr edilib və Mayın 28-də Ankarada böyük təqdimat mərasimi olacaq. Çalışacağam ki, bu ensiklopediya və "Biblioqrafiya"nı ingilis dilində də nəşr etdirim və geniş oxucu auditoriyasına çatdırım. Nəşr edilən "Biblioqrafiya"da M.Ə.Rəsulzadənin 1179 (min yüz yetmiş doqquz) əsərinin siyahısı verilib. Sağlığında o, müxtəlif dillərdə və ayrı-ayrı ölkələrdə 27 kitab nəşr etdirib.Uzun illər boyu Avropa dövlətlərinin kitabxanalarında geniş oxucu kütləsi məhz M.Ə.Rəsulzadənin kitablarından və məqalələrindən faydalanıb. Qafqaz, Sovetlər Birliyi, Azərbaycan mövzularını onun əsərlərinə istinad edib araşdırıblar. Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında bu kitabların və yazıların böyük əhəmiyyəti olub və bu gün də vardır. Təəssüflə qeyd edirəm ki, bu işlərin görülməsində ciddi maddi sıxıntılarımız və problemlərimiz var. Doğrudur, bu işə dəstək verən vicdanlı insanlarımız az da olsa tapılır. Əksər hallarda isə bu vacib araşdırmaların aparılmasına özümün çox da olmayan məvacibimi sərf etmək məcburiyyətində qalıram. Bəzi hallarda isə onun mühacirətdəki əsərlərini toplamaq üçün yaşadığı Avropa ölkələrinə getməklə bağlı xarici ölkə səfirliklərinə müraciət etmək zərurəti ortalığa çıxır. İnanıram ki, çox geniş sahələrə maddi vəsait ayıran Azərbaycanda bu dövlətin qurucusunun irsinin toplanılıb nəşr edilməsinə lazımi şərait yaradılacaq. Və nəhayət ki, M.Ə.Rəsulzadə irsinin yaşadılması ilə birbaşa məşğul olan bizim "Məhəmməd Əmin Rəsulzadə Mərkəzi" rəsmi qeydiyyata alınacaq, onun fəaliyyətinə dövlət dəstəyi olacaq".



YENİ MÜSAVAT
N 113 (6141) 26 may 2015

# "Cənubi Qafqazda sülhün təmini üçün Rusiya regiondan çıxmalıdır"

**Ümid Partiyası sədrinin Qaçqınlar və Məcburi köçkünlər üzrə müavini Anar İsayev Qarabağ münaqişəsi və həlli yolları ilə bağlı partiyanın mətbuat xidmətinə müsahibə verib. Müsahibəni oxuculara təqdim edirik.**

## Anar İsayev: "Cənubi Qafqaz ölkələri birliyi modelinin formalaşmasını təklif etmişik"



***- Anar bəy, Ümid Partiyasında yeni müavinlik institutu yaradılıb və siz "Qaçqınlar və Məcburi köçkünlər" üzrə müavin təyin olunmusunuz. Öncə təbrik edir və uğurlar diləyirik.***

- Təşəkkür edirəm.

***- Sizin üçün, partiyamız üçün bu münaqişə faktı necə görünür və bunu necə dəyərləndirirsiniz?***

- Yaxşı bilirik ki, ermənilərin Azərbaycan torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qarşı iddiaları onların "Böyük Ermənistan" yaratmağa yönəlmiş strateji planlarının tərkib hissəsidir. Ona görə də ermənilər "ənənələrinə" sadiq qalaraq həmişə əlverişli şərait yaranan kimi bu planın reallaşdırılması uğrunda mübarizəyə başlamışlar. Keçmiş SSRİ-də ermənipərəst M.S.Qarbaçovun hakimiyyətə gəlməsilə erməni separatçılar növbəti dəfə yenidən fəallaşdılar.

Seperatçı-terrorçu erməni dəstələri böyük qardaşları hesab etdikləri Rusiyanın birbaşa dəstəyi ilə Azərbaycan torpaqlarını işğal etdilər. Bu vandal birləşmələr işğal etdikləri torpaqları "viran qoymaq" taktikasına əl atmışdılar. Müharibədə 20 min azərbaycanlı şəhid olmuş, 100 min nəfər yaralanmış, 50 min nəfər əlil olmuşdur. Qaçqın və məcburi köşkünlərin sayı milyonu keçmişdir. Rəsmi məlumata görə, erməni-rus işğalçıları tərəfindən 4852 nəfər azərbaycanlı, o cümlədən 323 qadın, 54 uşaq və 410 qoca əsir və girov götürülmüşdür. Lakin ermənilər əsir və girovların həqiqi sayını beynəlxalq təkşilatlardan gizlədir, onlarla qeyri-insani rəftar edir, qul kimi işlədir, orqanlarını çıxardıb satırlar.

Azərbaycana qarşı ədalətsiz müharibə aparıldığını, onun ərazi bütövlüyünün pozulduğunu və torpaqların ermənilər tərəfindən işğal olunduğunu BMT təsdiq etdi. BMT Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərini tərk etməsi haqqında 4 qətnamə (822, 853, 874, 884 saylı) qəbul etdi. Lakin erməni işğalçıları bu qətnamələri yerinə yetirmədilər. Dünyanın güclü dövlətləri də bunun üçün heç bir təsir mexanizmindən istifadə etmədilər. Hazırda görünən mənzərə budur; bir milyondan artıq qaçqın və məcburi köçkün, ərazimizin 20%-nin işğalda qalması.

Münaqişənin həlli üçün hüquqi və siyasi addımlar beynəlxalq hüququn norma və prinsipləri, BMT TŞ-nın 822, 853, 874 və 884 saylı qətnamələri, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) və digər beynəlxalq təşkilatların müvafiq sənəd və qərarlarına əsaslanır. Çox təəssüf ki, münaqişə başladıqdan bu günə kimi münaqişənin həlli istiqamətində heç bir irəliləyişə nail olunmamışdır.

***- Sizin konkret nə kimi təklifləriniz var?***

- Mənim fikrimcə, erməni işğalçılarını torpaqlarımızdan çıxarmağın indiki şərtlərlə yeganə yolu sülh yoludur. Biz güclü iqtisadiyyata və ən əsası demokratik idarəçilik prinsiplərinə sahib olan Azərbaycan qurmaqla bölgənin lider ölkəsi ola bilərik. Güclü iqtisadiyyat həm də güclü ordu deməkdir. Bundan sonrakı mərhələdə isə bu münaqişəni yaradan və hər zaman alovlandırmağı ilə ölkəmizi təhdid edən Rusiyanın regiondan çıxmasını təmin etmək üçün addımlar atılmalıdır. Partiya olaraq bunun üçün Cənubi Qafqaz ölkələrinin birliyi modeli kimi bir model formalaşmasını təklif etmişik. Yəni biz Cənubi Qafqaz dövlətləri-Azərbaycan, Gürcüstan və Ermənistan Rusiyanı sıxışdırıb bölgədən çıxarmalıyıq. Rusiya əsasən Ermənistan ərazisində möhkəmləndiyi və Ermənistanı özünün forpostuna çevirdiyi üçün ilk növbədə çalışıb Ermənistanı Rusiyanın caynağından almaq lazımdır. Hazırda Ermənistan blokada şəraitində yaşayır və bunun nəticəsi olaraq iqtisadiyyatı bərbad vəziyyətdə olan dilənçi bir ölkə vəziyyətinə salınıb. Bölgədə olan regional layihələrdən təcrid olunmuş, heç bir istehsalı olmayan, dünyaya birbaşa çıxışı olmayan bir vəziyyətdə yaşayır.Belə bir vəziyyətdə yaşamağı erməni xalqı da arzu etmir və tezliklə münaqişənin həll olunmasını istəyir.

Biz münaqişənin həlli yollarını Türkiyə- Ermənistan sərhədlərinin açılmasında və Türkiyənin Ermənistanı iqtisadi cəhətdən Rusiya asılılığından xilas etməkdə görürük. Türkiyənin Ermənistan ərazisində iqtisadi cəhətdən dolayısı ilə həm də siyasi cəhətdən möhkəmlənməsi Rusiyanın bölgədə mövqeyinin zəifləməsinə gətirib çıxaracaq. Nəticədə Ermənistanın Rusiyadan asılılığı yavaş-yavaş azalacaq. Sonrakı mərhələdə Türkiyənin dəstəyi ilə ədalət bərpa olunaraq Azərbaycanın işğal altında olan torpaqlarını azad etmək şansı yaranacaq. Bölgədə sülh və əminamanlıq bərqərar olunaraq region dövlətlərinin dinc qonşuluq şəraitində yaşamasına gətirib çıxaracaq.

***- Ölkədə Qaçqın və Məcburi köçkünlərlə bağlı həyata keçirilən siyasətlə bağlı düşüncəniz nədir?***

- Doğrudur, dövlət qaçqın və məcburi köçkünlərin sosial problemlərinin, ev problemlərinin həlli yolunda müəyyən addımlar atıb. Əvvəllər yurdundan-yuvasından didərgin düşmüş soydaşlarımız qaçqın düşərgələrində, vaqonlarda, inzibati binalarda, bağçalarda, yataqxanalarda və sairədə məskunlaşmışdısa bu gün onların bir hissəsi dövlət tərəfindən artıq evlə təmin edilib,sosial müavinətlər verilir, qaz, işıq, su pulunun ödənilməsində güzəştlər tətbiq edilib. Lakin buna baxmayaraq onların kifayət qədər həll olunmamış problemləri qalır. Hələ də qaçqın və məcburi köçkünlər öz dədə-baba torpaqlarına, öz yurd-yuvalarına qayıda bilməyiblər.Vətən həsrəti,yurd nisgili hələ də bu insanların qəlbini didib parçalayır.

***- Qarşıdan parlament seçkiləri gəlir. Bizdə olan məlumata görə, seçkilərdə namizədliyinizi verməyi düşünürsünüz. Bu barədə hazırlıqlar necə gedir?***

- Əlbəttə. Mən də bu il keçiriləcək V çağırış Milli Məclisinə seçkilərdə iştirak etməyi qərarlaşdırmışam.İnşallah, bir əskiklik olmazsa 81 saylı Beyləqan Seçki Dairəsindən namizədliyimi irəli sürmək fikrim var. Beyləqan mənim üçün doğma olan bir bölgədir. Bu rayonda mənim qohumlarım, dostlarım, tanışlarım yaşayır və həm də mənim fəaliyyət sahəmin bir hissəsi də Beyləqanla bağlıdır. Artıq seçkilərə hazırlıqla bağlı müxtəlif işlər görülür. Mövcud şəraiti və siyasi vəziyyəti nəzərə alaraq, mövcud şərtlər daxilində hazırlıqlarımı davam etdirirəm. Əsas məqsədimiz insanların seçkidə iştirakını təmin etməkdir. İnsanların prosesə kütləvi şəkildə qatılması bizim qalib gəlmək şansımızı daha da artırır. Seçiciləri daha aktiv şəkildə proseslərdə iştiraka səsləyirəm! Çünki seçkilərdə ölkəmizin demək olar ki, gələcək taleyi həll olunur. Proseslərdə passiv olmağımız, seçkilərdə iştirak etməməyimiz mövcud problemlərin həll olunmaması, hətta deyərdim ki artması ilə nəticələnir. Bu səbəbdən bütün seçicilər öz üzərində məsuliyyət hiss etməli və seçkilərdə çox aktiv olmalıdırlar. Mən namizəd olacağım bölgənin-Beyləqanın demək olar ki, bütün problemlərini bilirəm və seçiləcəyim təqdirdə həllinə nail olmağa var gücümlə çalışacam.



## Gənc ümidçilər mayda baş verən hadisələri müzakirə edib

**Ümid Partiyasının mərkəzi qərargahında partiyanın bir qrup fəal gənci toplantı keçirib. Toplantıda may ayında baş verən ictimai-siyasi proseslər, yeni gənclərin partiya sıralarına cəlb olunması, parlament seçkilərində gənclərin rolu, namizəd olacaq gənclərin seçki hazırlığı, 28 May Respublika Günü münasibətilə tədbirin təşkili və bir sıra başqa məsələlər müzakirə edilib və fikir mübadiləsi aparılıb.**







**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**

YENİ MÜSAVAT
N 113 (6141) 26 may 2015



# Uzaqgörənliyin böhranı

Zamin HACI
zaminhaci@gmail.com

"Xəstəxana yanırdı, həkimin arvadı korlara dedi ki, siz azadsınız, çıxın, binadan qaçın. Ancaq onlar alovun istisini bir sığınacaq kimi qəbul edib yerlərində donub qalmışdılar, hara gedəcəklərini bilmirdilər"

**(Joze Saramaqo, "Korluq" romanı)**

**Vaxtilə yapistlər hakimiyyətə "uzaqgörənlər" şəklində gəlmişdilər. Sonra bu növü "hasarhörənlər" əvəz elədi. Nəticə də göz qabağındadır - burnunun ucundan uzağı görməyən bir hakimiyyət sistemi ortalıqda kor kimi dolaşmaqdadır. O üzdən hər gün bir biabırçılıq ortaya çıxır. Penoplast, banklardan kreditlərin oğurlanması, yiyəsiz villalar, dərəbəylik...**

Deyə bilərsiniz ki, uzaqgörənliyin hasara nə dəxli var. Deyin. Bizdə demokratiyadır. Onsuz da hüququ tapdanan, belində nazir gəzdirən uca millətimiz hər zaman özündən zəiflərə, məsəl üçün, jurnalistlərə çımxırmaq ustasıdır. Ancaq ən azı mənim bu yazıdakı şəklimə baxsanız mənim uzaqgörənlik problemləri haqda danışmaq haqqımın təbiətən olduğunu görərsiniz. Necə deyərlər, başına gələn başmaqçı, gözlük taxan optikaçı olurmuş.

Söhbət ondadır ki, hələ 20 il öncə yapon optika alimləri araşdırma aparıblar *(yeri gəlmişkən, bu məsələdə də onların ustalığına şübhəniz olmasın, üstəlik, bir yapon var, hər il bizim qaçqınlara nə qədər gözlük paylayır)*, məlum olub böyük şəhərlərdə, göydələnlərin çoxluğu şəraitində insanların gözləri zəifləyir, uzağı yaxşı görmürlər. Sən demə, insanın uşaq vaxtından geniş açılan üfüqü, açıq mənzərəni deyil, divarları seyr eləməsi onun gözünü zəiflədirmiş. Bir növ, həmişə yaxına baxan göz, elə yaxıngörməyə də düçar olurmuş.

Beləliklə, Bakını hasarlayıb özünü kor günə qoyan yapist sistem üzləşdiyi problemlər qarşısında da maymaq kimi davranır. Örnək üçün, hazırda bankirləri, hakimiyyət nümayəndələrini, onların qohumlarını, JEK müdirlərini-zadı tutub zindana salırlar. Halbuki cəmi 5-10 il qabaq bu cür məqsədlər üçün ehtiyatda müxalifət qüvvələri saxlanılırdı. Guya bundan qabaqkı sistem şefi müxalifətin qara gözünə-qaşına aşiq idi? Qətiyyən. Sadəcə, adam qurduğu sistemin vaxtaşırı böhrana girəcəyini, faciə və problemlərlə üzləşəcəyini yaxşı anlayırdı, bu baxımdan müxalifəti müəyyən miqdarda hətta qoruyub saxlayırdı! İndiki başçı isə müxalifəti tam məhv edib, hamını çoxdan zindana doldurub, qaçan qaçıb, qalan susub. Bəs indi bina yanıb 15 nəfər öləndə bunu kimin üstünə yıxsınlar? Müxalifət eləyib deyəcəklər, camaat təəccüblənəcək: "Axı özün deyirdin müxalifəti bir sinif kimi 10 il qabaq məhv etmişəm. Bəs bunlar kimdir? Yoxsa villalar kimi, bunlar da yiyəsiz müxalifətdir?"

Yapistlərin üzləşdiyi böhran isə karikatur böhrandır. Nəticələrinə görə yox, əlbəttə. Nəticələri hamımız üçün faciələr yaradır. Mən sadəcə böhrandakı fiqurların gülünclüyünə işarə edirəm.

Örnək üçün, guya dənizdə adalar şəhəri salmaq istəyən hacının tərcümeyi-halını xatırlayın. Adam guya müsəlman və hacı idi, ancaq konserninə atəşpərəstlərin kitabı "Avesta"nın adını qoymuşdu. 100 milyardlıq proyektdən danışırdı, ancaq indi 300 minlik maşının satlığa qoyub. Əslində yapizmin bütün mahiyyəti belə goplardan, bütün kadrları belə gopçulardan, "ostap bender"lərdən ibarətdir. Sadəcə, hərəsinin öz ifşa vaxtı var.

Başqa bir karikaturaya diqqət edin: ölkənin ən zırpı bankının adını "kasıb itinə Gümüş adı qoyar" prinsipi ilə "Beynəlxalq Bank" qoymuşdular. Amma indi məlum olur bankın bütün pulları yerli mafiozlarımıza, yerli quldurlarımıza kredit formasında paylanıbmış. Bu da sənə beynəlxalq... Danabaş Kəndinin Bankı adlansaydı vaxtında...

Hələ quldurlar bir yana, sən demə, rejimin təlxəkləri də bankdan külli miqdarda kredit alırmış. Deyirlər o təlxəklərdən birini aeroportda tutublar - xaricə qaçmaq istəyəndə.

Dayanıqlı inkişaf, davamlı sabitlik olmayanda hər şey beləcə penoplast şəklində, bir neçə saniyədə havaya uçub gedir. Yerində də qara hisə bürünmüş xarabalıq qalır.



# Rəsmi Bakı Avropa Birliyinə şərt qoydu

## Azərbaycan Riqa sammiti ilə bağlı xüsusi rəyini Brüsselə nazir Məmmədyarov Moskvada ikən göndərdi: "Qarabağ məsələsində birmənalı mövqe ortaya qoyun!.."

**Ötən həftə Riqada keçirilən Avropa Birliyinin (AB) "Şərq Tərəfdaşlığı" Sammitində qəbul edilən yeganə sənəd yekun bəyannamə oldu. Bəyannamədə tərəfdaş ölkələrin ərazi bütövlüyü və suverenliyi dəstəklənsə də, Krımın Rusiya tərəfindən işğalı pislənsə də, əfsus ki, Azərbaycanın işğala məruz qaldığı əksini tapmadı, Dağlıq Qarabağa dair BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi xatırlanmadı, yalnız problemin Minsk Qrupu çərçivəsində nizamlanması təqdir edildi.**

Bu səbəbdən haqlı olaraq narazı qalan Azərbaycan nümayəndə heyəti sənədi xüsusi rəy əlavə etməklə imzalayacağını bildirdi. Artıq xüsusi rəy açıqlanıb. Azərbaycan XİN-in mətbuat xidmətindən verilən məlumata görə, AB-yə göndərilən rəsmi rəydə bildirilir: "Azərbaycan Respublikası avropalı tərəfdaşların "Şərq tərəfdaşlığı"nın gündəliyində olan məsələlərin tam şəkildə bu bəyanat vasitəsilə əhatə edilməsi cəhdlərini qeyd edir. Azərbaycan AB-nin ziddiyyətli üslubdan yan keçərək, həssas və təhdid doğuran məsələləri cavablandırmaq cəhdlərini alqışlayır. Amma Azərbaycan bəzi məsələlərin kompromis mövzusu ola bilməyəcəyini vurğulayır. Belə ki, bir sıra "Şərq tərəfdaşlığı" ölkələri hərbi işğal, etnik təmizləmə və əhalinin zorla öz torpaqlarından qovulması ilə nəticələnərək xaricdən tətbiq edilən silahlı münaqişələr və ərazi iddiaları ilə üzləşirlər. Bu münaqişələr beynəlxalq hüququn fundamental norma və prinsipləri, xüsusilə suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin kobud şəkildə pozulması səbəbindən irəli gəlir və müşayiət olunur. Bu prinsiplər qlobal və Avropa qitəsi səviyyəsində dövlətlərarası münasibətlərin və beynəlxalq təhlükəsizlik sisteminin özəyini təşkil edir. AB-nin bütün tərəfdaş dövlətlərin suverenliyi və ərazi bütövlüyünə dəstəyini nəzərə alaraq, Azərbaycan bu prinsiplərin toxunulmazlığına kölgə salmaq cəhdlərini qeyd etməyə bilməz. Bəzi tərəfdaş dövlətlərə təsir edən münaqişələrə dair güzəştli mətnin hazırlanması cəhdlərində bəyanat layihəsinin müəllifləri beynəlxalq təcrübədə "ikili standartlar" adlanan məqamdan yan keçə bilməyiblər. Azərbaycan Respublikası Ermənistan-Azərbaycan hərbi münaqişəsinə münasibətdə AB-nin aydın və birmənalı mövqeyinin ifadə olunmasını gözləyir".

**XİN ardınca vurğulayıb:** "Dağlıq Qarabağ münaqişənin həllinin əsası Azərbaycanın ərazi bütövlüyü və suverenliyi və onun beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını bir daha təsdiq edən, Azərbaycanın bütün işğal olunmuş ərazilərindən erməni işğalçı qüvvələrinin dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 822 (1993), 853 (1993), 874 (1993) və 884(1993) saylı qətnamələri təşkil edir".

**Xüsusi rəy bu sözlərlə bitir:** "Azərbaycan Respublikası Avropa Birliyi tərəfindən bu qətnamələrə ciddi şəkildə riayət edilməsi və onların həyata keçirilməsinin təmin edilməsi istiqamətində birmənalı və qəti addımların atılmasını gözləyir".

*****

Göründüyü kimi, yerində olan bir iraddır və əslində AB-nin əsas orqanı olan Avropa Parlamentinin iki il öncə Qarabağ münaqişəsi ilə bağlı qəbul elədiyi qətnamə ilə bütünlüklə səsləşir. Həmin qətnamədə Ermənistandan zəbt elədiyi əraziləri qeyd-şərtsiz tərk eləmək tələb olunurdu. Təəssüf ki, Avroparlament bu il saxta erməni soyqırımı ilə bağlı ədalətsiz bir sənəd də qəbul elədi - onun hüququ qüvvəsi olmasa belə. Bununla da Avropa Birliyi özünün Dağlıq Qarabağ məsələsində obyektiv münsif olmaq potensialına kölgə salmış oldu.

Qurumun Riqa sammiti unikal fürsət idi ki, həmin "kölgə" aradan götürülsün. Ona görə ki, Azərbaycanla hərtərəfli əməkdaşlıqda və inteqrasiyada maraqlı olan istənilən nüfuzlu təşkilat və ya dövlət məntiqlə, öncə ölkəmizin ərazi bütövlüyü və suverenliyini birmənalı dəstələdiyini bəyan etməlidir. Yalnız bundan sonra ayrı, ikinci dərəceli məsələlər gündəmə gələ bilər.

Riqa bəyannaməsində BMT-nin Dağlıq Qarabağa dair qətnamələrinin əks olunması, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin pislənməsi ən əvvəl ona görə lazım idi ki, Ermənistan adlı işğalçı şirniklənməsin. İkinci yandan, sirr deyil ki, Minsk Qrupu çərçivəsində gedən danışıqlarda da BMT qətnamələri faktiki unudulub. Bu isə erməniləri qane edir. Çünki həmsədrlərin hazırkı yanaşması problemin beynəlxalq hüquq əsasında, ədaləti çözüləcəyinə inamı azaldır.

*****

Kəsəsi, Azərbaycanın iradı, yaxud şərti haqlı və yerindədir. Bu iradın, yaxud şərtin xarici işlər naziri Elmar Məmmədyarov Moskvada səfərdə olarkən açıqlanması və Brüsselə göndərilməsi isə onun önəminə əlavə xallar qatır. İstisna deyil ki, bu da Bakının AB-yə başqa, özünəməxsus mesajıdır - Azərbaycanın uzun müddətə itirilə biləcəyi ilə bağlı xəbərdarlıq mesajı.

**Son mesaj təbii ki, Rusiyaya da aiddir: Azərbaycanla ikitərəfli və çoxtərəfli (təşkilatlar çərçivəsində) əlaqələrin dərinləşməsini arzu edirsinizsə, Azərbaycanı AB-də və ya Avrasiya Birliyində görmək istəyirsinizsə, onda zəhmət çəkin, Qarabağ məsələsində birmənalı mövqe ortaya qoyun.**

❑ Siyasət şöbəsi

# İran hərbi obyektlərin qapısını açır

## Nazir müavini: "Biz BMT təftişçilərini hərbi obyektlərə buraxmağa hazırıq"

**İran öz hərbi obyektlərinə BMT təftişçilərini buraxmağa hazırdır. ANS PRESS-in məlumatına görə, bunu ölkənin xarici işlər nazirinin müavini Abbas Arakçi bildirib.**



O, yerli televiziyaya müsahibəsində deyib ki, ancaq beynəlxalq ictimaiyyətdə şübhəyə səbəb olan obyektlərə giriş hüququ veriləcək. Onun sözlərinə görə, bu addım İran nüvə proqramı ilə əlaqədar ABŞ və dünyanın başqa ölkələri ilə razılaşmanın tərkib hissəsidir. Bura Böyük Britaniya və Rusiya da daxil olmalıdır. Bu formatda məsləhətləşmələr çərşənbə axşamı yenilənməlidir və iyunun 30-da başa çatmalıdır.

Xatırladaq ki, dini lider Ayətullah Əli Xamenei bir müddət əvvəl İranın heç bir halda xarici ekspertlərə öz hərbi obyektlərində yoxlamalar keçirməyə icazə verməyəcəyini söyləmişdi.



Rəcəb Tayyib Ərdoğan

# "TANAP yalnız Türkiyə üçün əhəmiyyətli deyil"

**Transanadolu qaz xətti (TANAP) nəinki Türkiyə və bütün region, həmçinin Avropa üçün əhəmiyyətlidir. "Trend"in TRT Haber telekanalına istinadən verdiyi məlumata əsasən, bunu dünən Türkiyənin prezidenti Rəcəb Tayyib Ərdoğan İstanbulda keçirilən Enerji Forumunda çıxışı zamanı deyib.**

Onun sözlərinə görə, Türkiyə bundan sonra da enerji layihələrini inkişaf etdirəcək: "Son illər ərzində Türkiyə enerji şəbəkəsi olub".

# İstintaqa cəlb edilən iki oliqarx haqda yeni şok bilgilər

**İri oliqarxların həbsi ilə bağlı başlanmış "Beynəlxalq Bank işi"nin istintaqı "Bank Technique"ya da çatıb ki, əslində bu, gözlənilən idi. Çünki 2012-ci ilin aprelində "Texnikabank" ASC-nin rəhbəri Etibar Əliyev və bir sıra məsul şəxslər həbs edildikdən sonra bu bank Beynəlxalq Bankın İdarə Heyətinin rəhbəri Cahangir Hacıyevin idarəçiliyinə keçmişdi. O zaman "Texnikabank" ASC-yə nəzarət uğrunda Mərkəzi Bank rəhbəri Elmar Rüstəmov da səy göstərirdi.**



# Həbslər "Bank Technique"yə çatdı

## Cahangir Hacıyevin idarəçiliyində olan bankın rəhbərinin saxlandığı deyilir; bu bankdan da iri məbləğli, özü də heç bir girov qoyulmadan kreditlər götürülüb; Mərkəzi Bank rəhbəri Elmar Rüstəmov revanşa hazırlaşır

Amma hakimiyyətdən ciddi dəstəyi olan C.Hacıyev banka nəzarəti ələ aldı və E.Rüstəmov oyundankənar vəziyyətdə qaldı. Bundan sonra bankın adı dəyişdirilərək "Bank Technique" adlandırıldı, Cahangir Hacıyevin müavini Rövşən İsmayılov Etibar Əliyevin yerinə gətirildi. "Bank Technique" Müşahidə Şurasının yeni tərkibi də *(Fuad Mürşüdlü və Rauf Ağayev)* C.Hacıyevin işçilərindən təşkil edildi. Məhz bu səbəblərdən "maliyyə xəyanəti" ilə bağlı araşdırmaların tezliklə "Bank Technique" çatacağı gözlənilən idi.

***

Hüquq-mühafizə orqanlarına istinadən verilən məlumata görə, "Bank Technique" sədri Rövşən İsmayılov ötən həftəsonu saxlanılıb. R.İsmayılovun "Beynəlxalq Bank işi"nin istintaqını aparan DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində saxlanıldığı deyilir.

Məlumata görə, Rövşən İsmayılov mayın 22-də həbs olunub. Saxlanılanlar sırasında bankın "Xəzər" filialının rəhbəri olan Fərid Məmmədovun *(Prezident yanında Strateji Araşdırmalar Mərkəzinin sədri Fərhad Məmmədovun qardaşı)* adı da çəkilib. Onun kabinetindən 4 milyon dollar nağd pul çıxması barədə xəbərlər yayılıb. Məlumatlara görə, "Bank Technique"da ciddi yoxlamalar başlayıb. Yoxlamalar nəticəsində yeni həbslərin olması istisna deyilir.

"Bank Technique" onlarda yoxlama aparılması və həbs edilənlər barədə xəbərləri hələ ki təsdiqləmir. Amma "Oliqarxların işi" ilə bağlı başlamış istintaq çox ciddi məxfiliklə aparılır, həbs edilənlərlə bağlı rəsmi məlumat yayılmır. Bu baxımdan "Bank Technique"da mümkün həbslərin məxfi saxlanması təəccüblü deyil. Redaksiyamıza məlumat verən mənbə deyib ki, "Bank Technique" həbslər qaçılmazdır. Ən azı o səbəbdən ki, C.Hacıyevin paytaxt Bakıda elit yaşayış binalarının - "Azure Park" yaşayış kompleksinin tikintisini "Bank Technique" maliyyələşdirib. Böyük ehtimalla bankdan bu pulların tikintiyə yönəldilməsi araşdırılacaq. Məlumatlı mənbə deyib ki, "Bank Technique" dən də iri məbləğli, özü də heç bir girov qoyulmadan kreditlər götürülüb. Bu işdə də bəzi oliqarxların və iş adamlarının adı keçir. Aydındır ki, C.Hacıyevin razılığı olmadan iri məbləğlə kredit verilə bilməzdi. "Bank Technique" böyük məbləğdə və həm də girovsuz kredit götürmüş adamlar sırasında vəzifəli məmurların yaxın adamlarının olduğu da deyilir. Daha bir maraqlı məlumat "Bank Technique"yə nəzarət uğrunda yenidən mübarizə başlaması barədədir. İddialara görə, "Bank Technique" rəhbərliyində "əl dəyişmə" tezliklə gerçəkləşəcək. Daha 5 il Mərkəzi Banka rəhbərlik edəcək Elmar Rüstəmov bu dəfə ciddi revanşa hazırlaşır. O, "Bank Technique"də nəzarəti ələ alacaq və yaxın adamlarından ibarət İdarə Heyəti formalaşdıracaq. Amma bütün bunlar yalnız "Bank Technique" ilə bağlı araşdırmalar tam bitdikdən sonra gerçəkləşəcək...

***

"Oliqarxgeyt işi"ilə bağlı da yeni sensasion məlumatlar yayılıb. Son günlər həbsi barədə məlumatlar yayılan tanınmış iş adamı Hacı İbrahim İbrahimovun (İbrahim Nehrəmli) prezidenti olduğu "Avesta Concern" şirkəti ləğv olunub. Bu barədə publika.az-a Hacı İbrahimin köməkçisi məlumat verib.

Məlumatda qeyd olunur ki, iş adamı Beynəlxalq Banka olan borcla əlaqədar sözügedən şirkəti satışa çıxarıb. Bir neçə gün əvvəl isə "Avesta Concern"in bütün işçilərinə işə gəlməməklə bağlı xəbərdarlıq edilib. Səbəb kimi isə şirkətin ləğv olunması və yaxud satışa çıxarılması göstərilib. Bundan əlavə, şirkətin həyata keçirdiyi "Khazar Islands New City", "Gold City" və digər layihələri də müvəqqəti olaraq dayandırılıb.

İşdən çıxanlar arasında "Avesta Concern"in vitse-prezidenti Taleh Quliyev, ictimaiyyətlə əlaqələr mərkəzinin rəhbəri Xaqani Cəfərli və digər şəxslər də var. İşçilərə deyilib ki, borcunu ödəyə bilsə, o zaman işçilərin hər biri təkrar öz vəzifələrini icra etmək üçün şirkətə çağırılacaq. İşdən çıxarılanlar arasında ötən il Hacı İbrahim tərəfindən Azərbaycana dəvət olunmuş və yüksək məvaciblə "Avesta Concern"də işə götürülmüş dünyanın bir sıra populyar modelləri də var.

Futzal üzrə son Azərbaycan çempionu, Hacı İbrahimin sahibi olduğu "Xəzər adaları" da 2015-2016 mövsümü UEFA kubokunda iştirakdan imtina edib. Turnirdən iştirakdan imtinaya səbəbi klubun sahibi Hacı İbrahimin həbs olunması və klubun maddi durumunun acınacaqlı vəziyyətə düşməsidir.

Daha bir sensasion məlumata görə, Hacı İbrahimi Beynəlxalq Bankdan çox ağır şərtlərlə kredit alması bitirib. Bir mənbənin "Yeni Müsavat"a verdiyi xəbərə görə, o, reallaşdırılmasını boynuna götürdüyü böyük proyektə kreditlər almaq üçün Beynəlxalq Bankla müqavilə bağlayıb. Sonradan isə müqavilə şərtləri bank rəhbərliyi tərəfindən qeyri-rəsmi olaraq dəyişdirilib. Hacı İbrahimə bildirilib ki, şərtləri qəbul etməyəcəyi təqdirdə ona maliyyə ayrılması dayandırılacaq.

"Məcburiyyət qarşısında şərtləri qəbul edən iş adamın maliyyə vəziyyəti günü-gündən pisləşib" deyə, mənbə bildirib.

Bank tərəfindən irəli sürülən şərtə görə hər dəfə ayrılan kreditin böyük əksəriyyəti mal-material şəklində Hacı İbrahimə verilib.

***

Həbsdəki daha bir oliqarx Nizami Piriyevin vəkili isə müvəkkilinə işgəncə verilməsi barədə bəyanat yayıb. "Artıq bir neçə gündür ki, mən döyülürəm və qeyri-insani rəftarla üz-üzəyəm. Cümə günündən (mayın 22-dən-red.) etibarən məni hər gün bir neçə dəfə döyürlər. Mən vəkilim Muxtar Mustafayevdən bununla bağlı Baş Prokurorluğa və MTN-ə müraciət etməyi xahiş etmişəm" deyə, vəkil Muxtar Mustafayev virtualaz.org-a göndərdiyi məktubda qeyd edib.

M.Mustafayev deyib ki, ona müvəkkili ilə görüşməyi qadağan edirlər. Bununla belə, vəkil də oliqarx N.Piriyevin üzləşdiyi pis rəftar barədə məlumatlı olduğunu bildirib.

Xatırladaq ki, oliqarx Nizami Piriyev bir müddət əvvəl saxlanılıb və onun barəsində 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Nizami Piriyev "PNN Group" şirkətinin sahibidir. Onun oğlu Nəsib Piriyev isə həmtəsisçilərindən biridir. "PNN Group" şirkətinin əsas aktivləri neft kimyası sənayesi sahəsində ixtisaslaşan və metanol istehsalı ilə məşğul olan "AzMeCo" şirkətidir.

***

Xəbərlərə görə, iqtidar Avropa Oyunlarının yaxınlaşması ilə əlaqədar "oliqarxqeyt işi" ilə bağlı xəbərləri qismən ikinci plana keçirməkdə maraqlıdır. Amma tapşırığa görə, istintaq işini hərtərəfli davam etdirəcək. İndi əsas diqqət ölkədən qaçdığı deyilən iş adamlarının *(onların sırasında Dünyamin Xəlilovdan, Hafiz Məmmədovdan başqaları da var)* həbsinə nail olmaqdır. Məlumata görə, banklara borclu olub ölkədən qaçanların siyahısı kifayət qədər genişdir və hələ bu işdə çox adamlar azadlıqlarını itirəcəklər...

❑ **"Yeni Müsavat"**

# "Ərəbləşmək lazımdır!" deyən yoxdur...



**Hüseynbala SƏLİMOV**

**Hər şeyin bir əvvəli, bir də sonu var. Beləcə, Avrovizya da başa çatdı. Elə bir uğur qazana bilmədik - 12-ci yerlə kifayətlənməli olduq. Amma deyirəm ki, kaş futbolumuz da Avropada 12-ci yerdə olaydı. Onda azarkeşlərimizin, necə deyərlər, uçmağa qanadı olmazdı...**

Etiraf etmək lazımdır ki, builki mahnı yarışı bir qədər kölgədə qalmışdı. Ölkə artıq bir dəfə bu yarışların qalibi olduğundan, həm də qarşıdan gələn ilk Avropa oyunlarının daha çox vaxt və diqqət tələb etməsindən mahnı yarışları azacıq unudulmuşdu...

Amma keçənə güzəşt deyiblər. Bizim də məqsədimiz heç də Avroviziyanı saf-çürük etmək deyil. Bunun öz xiridarları var, onlar həmin yarışı bütün aspektlərdən-musiqi tərəfindən tutmuş düz siyasi tərəflərinə qədər tamam araşdıracaqlar...

Bizim üçün maraqlı olan isə yenə də biz və onlar-biz və avropalılar mövzusudur. Hər dəfə bir Avropa tədbiri keçiriləndə və azərbaycanlılar da ora qatılanda düşünürük ki, azacıq da olsa, irəli getdik, bir az da avropalaşdıq. Amma əsl Avropanı yalnız xəyallarımızda fəth edə bilirik...

Maraqlıdır, Avropa deyəndə dərhal iki ədəbi obraz yadımıza düşür. Biri Mirzə Fətəlinin Şahbazı, digəri isə Qurban Səidin (bəlkə də Yusif Vəzirin...) Əlisidir-bəli, biri Avropaya can atır, digəri isə əksinə, həmişə Şərqdə qalmaq istəyirdi...

Biri "modernist"lərin simvolu idi, o birisi "mühafizəkar"ların. Bəlkə də Şahbaz vaxtında Parisə getsəydi və o vaxt biz Parisi əməlli-başlı tanısaydıq sonralar asan olacaqdı-azərbaycanlılar Parisdən nə götürmək lazım gəldiyini biləcəkdilər, daha neft milyonçularımız kimi ora yalnız eyşi-işrət dalınca yollanmayacaqdılar...

Elə Əli də Avropanı bəlkə də ona görə sevmirdi ki, neft milyonçularımız artıq oraların yolunu "ağartmışdılar". O Parisi ki, Mirzə Fətəlinin Şahbazı görmək istəyirdi, o, bizim milyonçulara lazım deyildi. Əli isə onların heç birini istəmirdi, ona nə Paris salonlarının dəbdəbəsi, nə də ki, Sorbonna lazım idi, o, yalnız Bakıda qalmağı arzulayırdı- bir daha deyirik ki, Şahbazdan fərqli olaraq bu gəncin nə yeni dil və elm öyrənmək həvəsi, nə də neft milyonçuları kimi Parisin restoranlarında xərcləməyə pulu vardı, ona Bakının tozlu-torpaqlı küçələri də bəs edirdi...

Beləcə, Avropa ilə birgələşə bilmədik. Avropalaşmağı hətta milli məfkurəmizin əsas prinsipinə çevirsək də, Avropa bizim üçün yenə də uzaq ada olaraq qaldı...

İndi də qarşıdan Avropa oyunları gəlir. Fəqət, tələsməyə dəyməz. Hətta Avropa oyunları da bizi tamam yaxınlaşdırmaq iqtidarında deyil. Niyə? Ona görə ki, Şərq həmişə sarayları və bu saraylardakı zinətlərilə Avropanı heyrətləndirib...

Bu dəfə də avropalıların gözünü qamaşdırmaq istəyirik. Amma bu yolla mümkünmü? Deyilənə görə, dünyanın ən uca binası ərəb ölkələrinin birində inşa olunub. Amma bu, hələ heç nə demir, insanlar "İnkişaf etmək üçün ərəbləşmək lazımdır!" deməyə tələsmirlər...

Avropada çoxdan bilirlər ki, Şərq rejimləri cəmiyyətlərini qarət edərək dəbdəbəli saraylar tikirlər. Onlar artıq bu Şərqi görüblər. Belə Şərq onlar üçün daha yenilik deyil, hətta həmin Şərqin bir hissəsi Avropanın muzeylərindədir.

Prinsipcə, onlar başqa Şərqi görmək istərdilər. Amma görmək istədikləri Şərq yoxdur-əvəzində isə İŞİD və taliban var...

İŞİD-çilər və taliban guya ki, Şərqin keçmiş şöhrətini özünə qaytarmaq istəyirlər. Amma buna ehtiyac varmı? Hətta "Min bir gecə nağıllları" da bir dəfə olur və İŞİD əhlinin, talibanın qaytarmaq istədiyi Şərq bir nağıl oldu-onu avropalılar gördü, topladı və nağıla çevirdi, adını da "Min bir gecə" qoydular...

İndi qoca Şərqin gecələrə ehtiyacı yoxdur, o, bir işıqlı səhərin sorağındadır. Amma onu yaratmaq asanmı?

Bilirsiniz, bir dəfə bir əcnəbi söhbət zamanı bizə nə dedi? Dedi ki, Şərq mədəniyyətində dəbdəbə çoxdur, israfçılıq artıqdır, qənaət və təvazökarlıq azdır...

Bir də dedi ki, sizdə sərvətin necə qazanılması o qədər də maraqlı deyil, amma Avropada əksinədir, orada hər manatın hesabı aparılır...

Demirəm ki, həmin əcnəbinin dediklərinin hamısı "iki üstə gəl iki" kimidir. Yox, məsələn, Şərqdə də həmişə halal-haram söhbəti olub. Amma təbii ki, bu, indi bir ilğım kimidir...

Necə ki, Avropanın özü də bizim üçün ilğım kimidir. Bəlkə də əsl tragikomediya da elə budur, yaxşı nə varsa, artıq gözümüzə yalnız ilğım kimi görünür...

Nə etmək olar? Gerçək olmaq istəməyənlər ilğımlarla çarpışmağa məhkumdurlar...

YENİ MÜSAVAT
N 113 (6141) 26 may 2015

# Abid Şərifovun məsələsi böyüdü

## Baş nazirin müavini jurnalistlərə kobud cavab verdiyinə görə hakimiyyətin də qınağına tuş gəlib; iqtidar vitse-premyeri Mətbuat Şurasının dili ilə qınadı...

**Baş nazirin müavini Abid Şərifovun yanan bina ilə bağlı ona sual verən jurnalistə kobud cavab verməsi məsələsi böyüyüb. Dünən bununla bağlı Mətbuat Şurasının sədri Əflatun Amaşov A.Şərifova yazılı müraciət edib. Müraciətin əvvəlində MŞ sədri Azərbaycanın müstəqillik yolunda getdiyi yol barədə xatırlatmalar edib və Azərbaycan dövlətinin daxili siyasətində medianın rolunu vurğulayıb: “Bu siyasətdə yönümündən, mövqeyindən asılı olmayaraq heç bir kütləvi informasiya vasitəsinə fərq qoyulmur.**

Eyni zamanda onu da vurğulamaq lazımdır ki, media ilə bağlı siyasət yalnız daxili mahiyyət daşımır. Həssaslığı ilə seçilən sahə demokratik inkişafın vacib atributu sayılan söz və ifadə azadlığı baxımından müstəsna əhəmiyyətə malikdir. Bu, bütövlükdə mütərəqqi dünya ictimaiyyətinin bəyan etdiyi başlıca prinsiplərdəndir”.

**MŞ sədri daha sonra A.Şərifovun son olayda sərgilədiyi mövqeni də təhlil edib:** “Binəqədi rayonundakı 16 mərtəbəli binada baş vermiş yanğın hadisəsi ilə əlaqədar cəmiyyətin eşitmək istədiklərini ifadə etmək də ümumi işə fayda baxımından önəmlidir. Yüksək çinli məmur ictimaiyyətin gözləntilərini duymaq həssaslığına malikdir və səsləndirdiyi fikirlərin də həmin gözləntilərə adekvatlığı şərtdir. Abid müəllim, kifayət qədər idarəçilik təcrübəniz var. 15 nəfərin həyatına son qoymuş yanğın ətrafındakı məsələyə münasibət bildirirdiniz. Münasibətinizin dolğunluğu ilə diqqət çəkməli, hələ də başlarına gələnlərin dəhşətini yaşayan insanlara təskinlik ovqatına söykənməli, vətəndaşa dövlətinə inamı aşılamalı olduğunuz qənaətindəyik”.

**Ə.Amaşov daha sonra müasir jurnalistikanın durumuna da toxunub. Yazıb ki, jurnalistikamız kifayət qədər peşəkar deyil, ixtisaslaşma səviyyəsi zəifdir, digər problemlərimiz də var:** “Nəticədə bəzi jurnalistlərimizin barəsində söz açdıqları mövzudan xəbərsizliyinin üzə çıxdığı anlar da yaşanır. Ancaq elə hadisələr var ki, təcrübəli məmur jurnalistin ona ünvanladığı sualın qoyuluşundan, məzmun keyfiyyətindən, aydınlıq dərəcəsindən asılı olmayaraq məsələnin mahiyyətinə varmalı, yalnız media əməkdaşının sualını deyil, bütövlükdə cəmiyyətə ünvanlanacaq cavabı sərf-nəzərdən keçirməlidir. Nəzərə almalıyıq ki, insanlarımızın yanğın olayı ilə əlaqədar sualları çoxdur və onlar mavi ekrandan ölkənin baş nazirinin müavininin fikirlərini dinləməyə ehtiyac duyurdular. Nə dərəcədə razı qaldılar, təbiidir ki, cavabınıza münasibət heç də birmənalı ola bilməz”.

**“Dünyada vəzifəli şəxslərin jurnalistlərlə davranışı ilə bağlı bir sıra örnəklər mövcuddur” deyən MŞ sədri həmçinin vurğulayıb ki, dövlət məmuru jurnalistə qeyri-ciddi şəkildə yanaşmır, hətta ən çətin və anlaşılmaz suallar qarşısında belə nəzakət göstərərək vəziyyətin ictimai mahiyyətini düşünür, təmkinini qoruyur:** “Hörmətli Abid müəllim, demokratik inkişaf yolunda inamla addımlayan müstəqil Azərbaycan Respublikasında da bu cür örnəklər kifayət qədərdir və belə örnəklərin sayının daha da artması arzulanandır. Mövcud prosesdə həm ictimai institut kimi medianın, həm də dövlətin rolunun yüksəlməsinə ehtiyac var. Uzun müddət mühüm dövlət postundakı səmərəli fəaliyyətiniz, jurnalistlərin Sizdən olan gözləntilərini hər zaman doğrultmağınız məktubumuzda göstərilən məsələlərə həssas yanaşacağınıza, fikir və düşüncələrimizi səmimi qarşılayacağınıza əminlik yaradır. Sizə Azərbaycanın daha da çiçəklənməsinə yönələn işlərinizdə uğurlar arzulayırıq”.


Abid Şərifov

Redaksiyamıza daxil olan məlumata görə, hökumət dairələrində A.Şərifovun mediaya, dolayısı ilə cəmiyyətə münasibətdə bu cür saygısız davranışı, açıqlaması ciddi narahatlıq doğurub. İndiki həssas dönəmdə hansısa məmurun ciddi bir olaya lağlağı səviyyəsində yanaşması olayların rəngini daha da tündləşdirib. Bu mənada MŞ sədrinin açıqlaması eyni zamanda bu aqressiyanın qarşısını almağa, eləcə də hakimiyyət-media münasibətlərinə başqa rakursdan yanaşmağa xidmət edir.

**Amma “Yeni Müsavat” xatırladır ki, A.Şərifov sözügedən bəyanatdan öncə öz səhvini düzəltməyə çalışıb. “Mən balam kimi deyirəm, ay oğul, ay atam, sənə nə fərqi var kim tikib? Məsləhət olub filankəs tiksin, o da tikir. Siz də mənim bu cavabımı dramatikləşdirirsiniz, faciəyə, tragediyaya çevirirsiniz, şou düzəldirsiniz”, - deyə Abid Şərifov report.az-a açıqlamasında bildirib. Baş nazirin müavini hesab edir ki, jurnalistlərin hansı şirkətin yaxşı, hansının pis işlədiyini bilmələri mümkün deyil:** “Allah sizi qorusun, Allah sizi salamat eləsin. Siz jurnalistlər, bəyəm bilirsiz hansı şirkət yaxşıdır, hansı şirkət pisdir, hansı şirkət vicdanla işləyir? Ay Allah sizi salamat eləsin. İstər o balaca, istər də böyük jurnalistlərə mən bir balam kimi, arxayına müraciət edirəm. Siz də başlayırsız onu şou etməyə. Nə istəyirsiz edin. Allah sizi sağ-salamat eləsin”.

**Hadisənin “qəhrəman”ı, a24.az saytının əməkdaşı Amid İsbəndərov isə olke.az-a açıqlamasında A.Şərifovla aralarında yaranmış bu situasiyanı belə şərh edib:** “Bəzən belə vəziyyətlər olur. Ola bilər ki, gərginlikdən Abid müəllimin əsəbləri dözməyib sözügedən ifadələri işlətdi. Fikir verdinizsə, orada mən növbəti sualı vermədim. Yəni istəmədim bu məsələ söz mübahisəsinə çevrilsin. Bir sözlə, bu məsələ haqda çox yazıldı, çox danışıldı. Amma sualı verəndə məqsədim bu deyildi. Hər halda, bütün fikirlərə hörmətlə yanaşıram. İndi elə bir məqamdır ki, hər kəsin əsəbləri yerində olmaya bilər. Bu da təbii ki, başadüşüləndir. Şükürlər olsun ki, ölkə başçısının rəhbərliyi ilə yanğın zamanı xəsarət alan, yaxınlarını, evini, əmlakını itirən şəxslərə dövlət tərəfindən bütün yardımlar olunur. Mən də bir jurnalist kimi bu hadisə barədə ictimaiyyəti obyektiv şəkildə məlumatlandırmağa davam edəcəyəm”.

**“Yeni Müsavat” məlum bəyanata A.Şərifovun münasibətini öyrənmək üçün onunla əlaqə saxlayıb. Baş nazirin müavini “yanımda müşavirə var, danışa bilmərəm” deyərək, suallara cavab verməyib.**

❑ **Sevinc TELMANQIZI**

# Sahibkar Azərbaycanı tərk edib Gürcüstanda aclığa başladı

## İş adamının marşrut xəttini əlindən alıblar; **Dönməz Məmmədov:** “503 saylı xəttin sahibi vəzifəli adamla qohumdur, məni sıxışdırıb marşrutu ona verirlər”

**Bakı-Saray-Sumqayıt xətti üzrə işləyən 501 nömrəli marşrutun sahibi Məmmədov Dönməz Abutalıb oğlu hazırda Gürcüstan Respublikasının ərazisində aclıq aksiyası keçirir. “Yeni Müsavat”ın redaksiyasına şikayət edən sahibkar bildirir ki, sahibi olduğu “Amal-D” MMC şirkətinə məxsus “Daewoo”markalı 17 avtobus xətdən çıxarılıb və Bakı Şəhər Nəqliyyat Departamentinin cərimə meydançasına aparılıb. Sahibkar isə bu duruma etiraz etsə də bir nəticə əldə edə bilməyib.**

Redaksiyamızla telefon əlaqəsi saxlayan şikayətçi qeyd edib ki, 17 ildir sərnişin daşıma ilə məşğul olur: “501 nömrəli marşrut avtobusu açıldığı gündən bu günə kimi onun fəaliyyətini bizim şirkət həyata keçirib. Son bir ayda isə Nəqliyyat Departamenti bizə işləməyə icazə vermir. Səbəb isə odur ki, Sumqayıt Şəhər Nəqliyyat Departamenti aylıq ödədiyim puldan əlavə məndən 300 manat da pul istədi. Mən isə bundan imtina etdim. Çünki bizim qazancımız buna imkan vermir. Bundan əlavə, fevral ayında manat ucuzlaşandan sonra bizim ödəmələri də dolların kursuna uyğun olaraq artırdılar. Mən əlavə tələb olunan 300 manatı vermədiyimə görə mənim şirkətimin işinə mane oldu. May ayının əvvəlindən başlayaraq bizim avtobusların işləməsinə imkan verilmədi, ayın 4-dən 22-nə qədər 17 avtobusu yığıb Nəqliyyat Departamentinin həyətində saxladılar. Baş İdarədə mən onlarla görüşəndən sonra maşınları geri qaytardılar və dedilər ki, işləməyə davam edə bilərsiniz. Mən maşınları Sumqayıt Şəhər Nəqliyyat Departamentindən xilas etdim, növbəti gün isə Bakı Şəhər Nəqliyyat Departamenti heç bir əsas olmadan maşınları cərimə meydançasına yığdı”.




**Başına gələnlərin səbəbini anlamaqda çətinlik çəkən Dönməz Məmmədov iddia edir ki, bunu 503 nömrəli marşrut xəttinin sahibi üstünlüyü ələ almaq üçün edib:** “Səbəbi bəlli deyil və bunun üçün heç bir qanuni əsas yoxdur. Bütün bu maşınlar Nəqliyyat Nazirliyinin göstərişi əsasında alınmış ”Daewoo" markalı avtobuslardır. 17 ildir ki, “Amal -D” MMC 501 nömrəli marşrut avtobusu ilə “Bakı- Saray-Sumqayıt” xətti üzrə sərnişin daşıma ilə məşğuldur. Marşrut xətti açıldığı gündən tənzimləyicisi bizim şirkət olub. Lakin son günlər Anar adlı şəxs tərəfindən yaradılan və bu marşrutla eyni istiqamətdə işləyən 503 saylı marşruta üstünlük verməyə çalışırlar. Bizim şirkətin fəaliyyət göstərmək üçün Nəqliyyat Nazirliyindən rəsmi icazəsi var. Ancaq 503 nömrəli marşrut xəttinin heç bir icazəsi yoxdur. İndi həmin marşrutun sahibi yüksək vəzifəli bir məmurla qohum olub. Onun əli ilə məni sıxışdırıb bizim şirkəti xətdən çıxardıb ona vermək istəyirlər".

**Şikayətçi deyir ki, hazırda Azərbaycanı tərk edib və Gürcüstanda aclıq aksiyası keçirir:** “Mən isə bu hadisələrdən sonra Azərbaycanı tərk edib Gürcüstana gəldim. Sizdən xahiş edirəm ki, bu məsələni işıqlandırasınız, əgər gələcəkdə bizim dövlət qurumlarından münasibət bildirilməsə, mən məcbur qalıb düşmən dövlətə müraciət edəcəyəm. Mən iki gündür buradayam və aclıq elan etmişəm. Buranın polisi məni nəzarətə götürüb. Tiblisi-Bakı yolunda ac şəkildə maşının içində yatıram. Bu məsələyə dövlət qurumlarının münasibət bildirməsini istəyirəm”.

**Dönməz Məmmədov problemini işıqlandırmaqla əlaqədar dövlət qurumlarının məsələyə reaksiya verməsini istəyir.**

**Mövzu ilə bağlı tərəflərin mövqeyini dərc etməyə hazırıq.**

❑ **Nərgiz LİFTİYEVA**

# Binanın yanmasında təxribat izi: ekspertlər nə deyir?

**Binəqədidə yaşayış binasındakı faciədən sonra olayın qəsdən törədilə biləcəyi haqda müzakirələr səngimir. Sosial şəbəkələrdə binaların üzlüyündən sökülmüş poliuretan adlı materialın yanğına davamlılığının yoxlanılması üçün yandırılması, lakin poliuretanın alışmaması əks olunan video da yayılıb. Bu videoya əsaslanıb hadisənin terror, təxribat ola biləcəyini ehtimal edənlər də az deyil.**

**Milli Təhlükəsizlik Nazirliyinin sabiq polkovniki İlham İsmayıl deyir ki, istintaq orqanı hərtərəfli araşdırma aparmalıdır:** "Bu, ilk yanğın deyil. Bundan əvvəl Sumqayıtda, Bakının Xətai rayonunda da eyni materialla üzlənmiş binalarda yanğın baş verdiyinə görə ən az ehtimal olunan variant terror və təxribatdır. Xarici ölkələrin xüsusi xidmət orqanları belə bir təxribatla nəyə nail ola bilərlər? Düzdür, baş vermiş hadisə hakimiyyətin əleyhinə işləyir. Amma xarici xüsusi xidmət orqanlarının burada mövcud hakimiyyəti devirmək planı yoxdur. Yəni təxribatın məqsədi olmalıdır".

**Baş vermiş faciədən sonra sosial şəbəkələrdə yayılan videoda digər binalardan sökülən poliuretan üzlük materiallarının yanmaması açıq-aydın görünür. Belədirsə, bəs necə oldu ki, Binəqədidəki binanın üzlüyü çox az bir müddətdə sürətlə yandı? Baş vermiş yanğını şərtləndirən digər amillərin izini axtarmağa dəyərmi?**

**İlham İsmayıl deyir ki, həmin binadakı poliuretan üzlüyün sürətlə alışması bina ilə üzlüyün arasındakı məsafədə əmələ gələn hava sovrulmasının nəticəsi ola bilər:** "Fakt budur ki, orada yanğın çox sürətlə yayıldı. Təkcə o bina deyil, əvvəlkilər də belə yanmışdı. Baş vermiş hadisəni terror və ya təxribat kimi qiymətləndirmirəm".

**Binada yanğın Azərbaycanda baş tutacaq 1-ci Avropa Oyunlarına 1 aydan da az bir müddət qaldığı bir vaxta təsadüf etdi. Ola bilərmi ki, bu, Azərbaycan hakimiyyətinə təsir etmək istəyən qüvvələrin təxribatdır?**

**İ.İsmayıl bildirib ki, suala cavab vermək üçün xəbərdarlığın mahiyyətinə varmaq lazımdır:** "Hər bir təxribatın bir məqsədi olmalıdır. Binadakı yanğından sonra hakimiyyət fəaliyyətini davam etdirirsə, oyunlar təxirə salınmırsa, deməli, belə bir məqsəd yoxdur. Məqsədsiz isə təxribat olmur. Riqa sammiti tam normal olmasa da, ötüb keçdi. Rusiya prezidenti Putin də Azərbaycana gəlməyə hazırlaşır. Ən az ehtimal etdiyim versiya terror və təxribat versiyasıdır".

**Milli Məclisin Təhlükəsizlik və Müdafiə Komitəsinin üzvü Zahid Orucun olaya münasibəti belədir:** "Belə hadisələr öz-özünə meydana çıxmır. Adətən kənar iradə mütləq rol oynayır. Əlbəttə ki, bunu əvvəldən proqnozlaşdırmaq mümkün idi. Xüsusilə də Soçi Olimpiadası öncəsi Volqoqradda terror hadisələri baş vermişdi. Amma bunun terror cəhdi olduğunu, həqiqətən də həmin materialların müəyyən mənada kütləvi qırğın törədə biləcəyi amilini nəzərə alıb ən zəif yerdən vurulduğumuzu düşünənləri nə təsdiq, nə də təkzib etmək niyyətim yoxdur".



**İlham İsmayıl:** "Fakt budur ki, orada yanğın çox sürətlə yayıldı"



**Zahid Oruc:** "Axı bir bina bir kibritdən yanacaq qədər də asanlıqla alışmamalıdır!"



**Arzu Nağıyev:** "Qəsd məsələsi də araşdırılmalıdır"

**Z.Oruc deyir ki, olayın araşdırılması rəsmi qurumların çiynindədir:** "Keçmişdə baş verən hadisələr erməni terror qruplarına və ya müxtəlif terror qruplarına bağlı olub. Ortada məmur özbaşınalığından, qanunsuzluqdan, korrupsiyadan törənən hadisə var. Bu hadisənin baş verməsi üçün zəmin yaratmışıq. Bundan hər hansı bir qrup öz məqsədi üçün istifadə edibsə, biz bu zəmini ona vermişik! Axı bir bina bir kibritdən yanacaq qədər də asanlıqla alışmamalıdır! Hər bir ölkədə antiterror tədbirləri var. Bu tədbirlər hər bir binanın yanına post qoyulmasından ibarət deyil. Bu tapşırılan işin qanuni formada həyata keçirilməsindən keçir. Bir bina necə bombaya çevrilib? Əgər sabah deşifrə olunsa ki, bir terror qrupu hadisəni öz üzərinə götürür, burada başqa amillər olub -Azərbaycanı cəzalandırmaq niyyəti var, xarici siyasət kursundan daşındırmaq istəyirlər- yenə də daxildəki vəziyyəti pərdələmək fikrində olmayacağam. Yəni bizim müxtəlif hökumət qurumlarının məsuliyyətinin üstünə pərdə çəkməyəcəyəm".

**Z.Oruc deyib ki, baş vermiş yanğında suçu olan müvafiq qurumların məsuliyyətinin üzərindən keçilməyəcək:** "Çətinə düşən kimi erməni və ya terrorçu amilindən istifadə edirik. Axı terrorçunun o fəaliyyəti göstərməsi üçün gərəkən nə varsa biz ona hamısını vermişik. Tutaq ki, ora kimsə benzin atıb və yandırıb. Belə də o qurumların məsuliyyətinin üzərindən keçməliyik?"

Politoloq, **sabiq təhlükəsizlik orqanı əməkdaşı Arzu Nağıyev deyir ki, bütün versiyalar yoxlanılmalıdır. A.Nağıyev yanğının sürətlə yayılmasının səbəbinə diqqət çəkib:** "Üzlüklə bina arasında üzlənmə işləri zamanı məsafə qoyulur. Bununla da aerodinamik boşluq əmələ gəlib və yanğının sürətlə yayılması da bu amillə bağlıdır. Həmin məsafə baca rolunu oynayıb. Balaca bir qığılcım böyük bir yanğına səbəb olub".

**A.Nağıyev təxribat versiyasının yoxlanılmalı olduğunu söylədi:** "Hər bir təxribatın səbəb və məqsədi olmalıdır. Bu məsələdə isə belə bir səbəb və məqsədi olan qrup yoxdur. Amma Sumqayıtda və Xətaidə də belə hallar olmuşdu. Bu, əlaqədar təşkilatların diqqətsizliyi idi ki, belə bir faciəyə gətirib çıxardı. Bunun qarşısı vaxtında alınmalı idi. Amma qəsd məsələsi də araşdırılmalıdır".

❑ **E.MƏMMƏDƏLİYEV**

# İran-ABŞ yaxınlaşması təkcə neftin qiymətinə təsir etməyəcək

## Ərəstun Oruclu: "Sabah Qərb şirkətləri Azərbaycandakı layihələrini dayandırıb İrana getsələr, təəccüblü olmayacaq..."

**Dünya bazarında neft yenidən ucuzlaşıb. Bir sıra müşahidəçilər bunu İranla ABŞ arasında müşahidə olunan yaxınlaşma ilə izah edir. Ötən həftəsonu İran hökumət nümayəndəsi İran-ABŞ ticarət palatalarının yaradıla biləcəyi haqda açıqlama verib. Eyni zamanda Tehran hökuməti aprelin 2-də İsveçrənin Lozanna şəhərində nüvə məsələsi ilə bağlı razılaşmanın yekun sənədə çevrilməsi ilə bağlı nikbin bəyanatlar verib.**

İran xarici işlər nazirinin müavini Abbas Əraqçi bildirib ki, İran BMT təftişçilərini hərbi obyektlərə buraxmağa hazırdır. Onun sözlərinə görə, bu addım İran nüvə proqramı ilə əlaqədar ABŞ və dünyanın başqa ölkələri ilə razılaşmanın tərkib hissəsidir. "Bura Böyük Britaniya və Rusiya da daxil olmalıdır. Bu formatda məsləhətləşmələr çərşənbə axşamı yenilənməlidir və iyunun 30-da başa çatmalıdır".



Ərəstun Oruclu

Bütün bunlar dünya bazarında neftin ucuzlaşması fonunda baş verir. Bu isə ilk növbədə neft qiymətlərinə İran faktorunun beynəlxalq bazara daxil olması faktının təsir etməsi iddiasını gücləndirir. Yeri gəlmişkən, ötən həftə Tehran rəsmiləri bəyan ediblər ki, İran artıq yenidən neft bazarına qayıdır və hasilatı gündəlik 2,5 milyon barelə çatdırmağa hazırdır.

Ekspertlərə görə, İranın yenidən dünya neft bazarına daxil olması neft qiymətlərinə təsir etməklə yanaşı, Tehranın bölgədə mövqelərini möhkəmləndirəcək. Təbii ki, Tehranın bu cür möhkəmlənməsi Bakının maraqlarına cavab vermir. Hərçənd rəsmi Bakı optimistdir, İran-ABŞ yaxınlaşmasının Azərbaycana müsbət təsirlərinin olacağını iddia edir.

**Politoloq Ərəstun Oruclu deyir ki, İran-ABŞ yaxınlaşması yaxın perspektivdə olmasa da, qarşıdakı dövrdə bölgəyə ciddi təsir edəcək. Ekspertə görə, bu təsir böyük ölçüdə Azərbaycanı da əhatə edəcək:** "İranın nüvə fəaliyyəti ilə bağlı "altılıq" ölkələri ilə yekun sazişin imzalanması və Tehran-Vaşinqton yaxınlaşmasının Azərbaycana birbaşa təsiri yaxın zamanlarda çətin ki, olsun. Ancaq şübhəsiz ki, bu, öz təsirini sonra göstərəcək. Lakin bir sıra məsələlərdə, o cümlədən neft qiymətinin ucuzlaşması kimi mövzularda öz təsirini qısa müddətdə göstərəcək. İqtisadi əlaqələrin bərpa olunması, İran-Amerika ticarət əlaqələrinin bərpa olunması, İranın birgə ticarət palatalarının yaradılması planları təbii ki, müəyyən qədər uzunmüddətli prosesdir, nəticəsi müəyyən zaman tələb edə bilər. Ancaq nəticə mütləq olacaq. Ona görə ki, Azərbaycanda olan bir çox Qərb şirkətləri, investorlar üstünlüyü İran bazarına verəcəklər. Deyək ki, sabah Azərbaycanda fəaliyyət göstərən Qərb şirkətləri burdakı layihələrini dayandırıb İrana getsələr, buna təəccüblənmək lazım deyil. Xüsusilə də Azərbaycanın bugünkü reallığını nəzərə alanda da bu, çox real görünür".

**Ə.Orucluya görə, İran-Amerika yaxınlaşmasının Azərbaycana faydaları ilə bağlı hakimiyyətə yaxın ekspertlərin iddiaları əsaslı deyil:** "Bir çox sahələrdə Azərbaycan və İran iqtisadiyyatı arasında paralellik aparsaq, ortada ciddi fərqin olduğunu görə bilərik. Bildiyimiz kimi, Azərbaycan iqtisadiyyatı daha çox neft və qaz ixracatı üzərində qurulub. İran iqtisadiyyatı isə daha çoxşaxəlidir. Yalnız neft və qaz sahəsinin özünü müqayisə edəndə ciddi fərqlər ortaya çıxır. Bu mənada İran-Qərb yaxınlaşmasının Azərbaycana müsbət təsirinin olacağı inandırıcı deyil".

❑ **KƏNAN**

# Cinayət Məcəlləsinə dəyişikliklər təsdiqləndi

**Azərbaycan prezidenti İlham Əliyev "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2015-ci il 28 aprel tarixli qanunun tətbiqi barədə fərman imzalayıb.**




APA-nın məlumatına görə, Nazirlər Kabinetinə Azərbaycan Respublikası qanunlarının və prezidentin aktlarının "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Qanuna uyğunlaşdırılması ilə bağlı təkliflərini 3 ay müddətində hazırlamaq, Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını 3 ay müddətində təmin etmək, habelə mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlamaq və bunun icrası barədə 5 ay müddətində prezidentə məlumat vermək tapşırılıb.

Ədliyyə Nazirliyi isə mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Qanuna uyğunlaşdırılmasını təmin edib Nazirlər Kabinetinə məlumat verməlidir.

Müəyyən edilib ki, Cinayət Məcəlləsinin 318-2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Xarici İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidməti həyata keçirir.

Qeyd edək ki, Cinayət Məcəlləsinə 318-2-ci maddə əlavə edilib. Həmin maddəyə əsasən, xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan vətəndaşı bu barədə müvafiq icra hakimiyyəti orqanına 1 ay müddətində yazılı məlumat verməmədiyi halda 3 min manatdan 5 min manatadək miqdarda cərimə və ya 360-480 saat ictimai işlərlə cəzalandırılır.

YENİ MÜSAVAT
N 113 (6141) 26 may 2015



# A.M.A.Y Abdullanın vəkilindən hakimə hədəli etiraz

## Osman Kazımov: "Bu iş Avropa Məhkəməsinə gedəcək, istəmirəm orada yazaq ki, bu pul ona görə götürülüb ki..."

**Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əfqan Hacıyevin sədrliyi ilə A.M.A.Y. ticarət mərkəzinin həbsdə olan rəhbəri Abdulla Abdullayev, Heydər Rzayev, Mehman Məmmədxanlı, Elşən Novruzov, Vidadi Qurbanov və Nadejda İlyasovanın barəsində olan cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.**

Mayın 25-də baş tutan prosesdə "Texnikabank"dan və "Birlikbank"dan götürülən kreditlər üzrə şahidlər dindirildi. Şahid qismində ifadə verən Şücaət Məmmədov bildirdi ki, onun adına "Köhnə Qala" firması təsis olunub, təqsirləndirilən Elşən Novruzovun təklifi ilə "Texnikabank"dan kredit götürüb və götürülən məbləğ A.M.A.Y.-ın tikintisinə sərf olunub. "Birlikbank"ın kredit şöbəsinin mütəxəssisi Dilarə Hüseynova təqsirləndirilən şəxsləri tanımadığını, onların adlarını eşitdiyini, bankda üç ay işlədiyini, verilmiş kreditlərlə bağlı məlumatı olmadığını dedi.

A.M.A.Y. şirkətində mühafizəçi işləyən Cəfər Məhərrəmov təqsirləndirilən Mehman Məmmədxanlının təklifi ilə bankdan 1 milyon məbləğində pul götürdüyünü, həmin pulların A.M.A.Y.-ın tikintisinə sərf olunduğunu bildirdi. Dövlət ittihamçısını suallarını cavablandıran şahid pulu Mehman Məmmədxanlıya verdiyini açıqladı.

**A.Abdullayev şahidin dediklərinə bu cür reaksiya verdi:** "De ki, biz aşağı rəqəmlərlə işləmirik, de ki, pulu bağlamışıq, nə istəyirsiz?"

**"Birlikbank"ın kredit şöbəsinin müdiri İlqar Muradov şahid qismində istintaqa verdiyi ifadəsini təsdiqlədiyini bildirdi:** "Müştəriyə 10 min manatdan artıq kredit vermirdik. Ondan yuxarı məbləği konkret tapşırıq əsasında verirdik".

Dövlət ittihamçısı Fərid Nağıyev şahiddən kimin tapşırığı əsasında verdiklərini soruşdu.

A.Abdullayev yerindən replika verdi:

- Sizə tapşırıblar məni həbs edin, etmisiniz, eləcə də tapşırıblar kredit verin, veriblər. Sizə tapşırılıb mənə iş verəsiz?

**Hakim:**

- Xeyr.

**A.Abdullayev:**

- Tapşıracaqlar...

Şahid İ.Muradovun ibtidai istintaqa verdiyi ifadəsi elan olundu. Şahid ifadəsində göstərib ki, "Birlikbank"ın müdiri Səriyyə Səmədovanın göstərişi ilə sənədlərə imza atıb, onun tapşırığını icra edib.

**A.Abdullayev qısa çıxış etdi:** "Burda yalan danışan yoxdur. Bu işə görə günahsız insanlara iş vermisiz. Günah məndədir ki, bu işi Avropa Məhkəməsinə vermədim, indi təzminat almışdım".

Şahid qismində məhkəmədə dindirilən Xanbaba Qayıtmazov 2006-cı ildə "Birlikbank"ın Qusar şöbəsindən kredit götürdüyünü, krediti qaytardığını bildirdi.

Şahid Zahid Kərimov da eyni məzmunlu ifadə verdi. O, 2007-ci ildə "Birlikbank"dan kredit götürdüyünü və qaytardığını göstərdi.

"Birlikbank"dan kredit götürülən şəxslərin məhkəməyə çağırılıb şahid qismində dindirilməsi A.Abdullayevin vəkillərinin etirazına səbəb oldu.

**Vəkil O.Kazımov:** "Bu şahidlərin A.M.A.Y.-ın işinə nə aidiyyəti var axı? Bunların dindirilməsinə nə ehtiyac var?"

"Birlikbank"ın ləğvetmə komissiyasının üzvü olmuş Abbasəli Qurbanov və Beynəlxalq Bankın işçisi Həbib Qafarov şahid qismində ifadə verdilər. "Birlikbank"dan kredit götürən şəxslər pulların qaytarılmasında gecikmələr olduğu üçün cərimə edildiklərini dedilər. Bu məsələyə aydınlıq gətirən A.Abdullayev bankın 2011-ci ildə lisenziyası ləğv edilənə qədər fermerlərin cərimə olunmalarına imkan vermədiyini, ödəmə müddətinin uzadıldığını bildirdi. Onun sözlərinə görə, cərimələr və fermerlərin borclarının əmlaka yönləndirilməsi bankın lisenziyası ləğv edildikdən, Mərkəzi Bank "Birlikbank"a inzibatçı təyin etdikdən sonra baş verib. A.Abdullayev bunu da qeyd edib ki, "Birlikbank" fəaliyyət göstərdiyi dövrdə fonda ödəmə kreditlərin vaxtı çatmadığı üçün cərimələrə imkan verməyib. A.Abdullayev banklarla bağlı qanuna isnad edərək bankların gəlirlərinin öncə bankdaxili xərclərə, daha sonra dövlət öhdəliklərini yerinə yetirməyə, bundan sonra təminatlı kreditlərin ödənişinə yönəldilməli olduğunu dedi.

Beynəlxalq Bankın işçisi H.Qafarov ifadəsində Beynəlxalq Bankdan A.M.A.Y.-a 57 milyon 358 min manat kredit verildiyini açıqladı. Dövlət ittihamçısı şahiddən kreditlərin Əsgər Budaqov, Əmirağa Əliyev və Rəşad Süleymanova verilib-verilmədiyini soruşdu. Şahid şəxsiyyət vəsiqəsi olmadan heç kimi qəbul etmədiklərini bildirdi.

Dövlət ittihamçısı zalda əyləşən Əsgər Budaqova müraciət etdi:

- Siz 9 milyon manat məbləği kassadan götürmüsünüzmü?

**Ə.Budaqov:**

- İmza atmışam, amma pul götürməmişəm.

Dövlət ittihamçısı eyni sualı zalda əyləşən Əmirağa Əliyevə və Rəşad Süleymanova da ünvanladı. Hər iki şəxs sənədlərə imza atsalar da, bankdan pul götürmədiklərini dedilər. Ə.Budaqov isə bu iş üzrə zərərçəkmiş olduğunu bildirdi: "Texnikabank" və Beynəlxalq Bank həm əmlakımızı, həm də dövlətin pulunu mənimsəyiblər, mən zərərçəkmişəm".

**A.Abdullayev qısa çıxış etdi:** "Həmin pulları götürüb aparmaq belə mümkün deyil. "Texnikabank"dan azad olunan girovlar Beynəlxalq Banka keçib".

**Bundan sonra vəkil Osman Kazımov Abdullayevin barəsindəki cinayət işinin icraatına xitam verilməsi ilə bağlı vəsatət qaldırdı:** "A.Abdullayevin həbsdə saxlanılması qanunsuzdur. Bu iş Avropa Məhkəməsinə gedəcək. İstəmirəm orada yazaq ki, bu pul buna görə götürülüb. Bunu yazmaq istəmirik. Bunu yazmağa niyə bizi məcbur eləyirsiniz? Bu, çox ciddi məsələdir. Biz yazıb göstərəcəyik ki, Abdulla Abdullayevi məhz bu məsələyə görə tutublar".

Hakim vəsatətin sabah müzakirə olunacağını məhkəmə iştirakçılarının nəzərinə çatdırdı.

Məhkəmə prosesi mayın 26-na kimi təxirə salındı.

Qeyd edək ki, Abdulla Abdullayev və digərləri Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə təqsirləndirilir. Təqsirləndirilən şəxslərdən yalnız A.Abdullayev barəsində həbs-qətimkan tədbiri seçilib, digər şəxslər isə zamindədirlər. A.Abdullayev ötən il aprelin 4-də həbs olunub.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Xarici mediaya Azərbaycan haqqında məlumatları kim ötürür?

## Tural Abbaslı: "Hökumət daxildə "satqın və xain" axtarmaqdansa, dövləti demokratik prinsiplərlə idarə etməyə çalışsın"

**Avropa Oyunları yaxınlaşdıqca Qərb mətbuatında Azərbaycan hakimiyyətinin ünvanına tənqidi yazıların da sayı artır. 2012-ci ilə "Eurovision" mahnı yarışmasında olduğu kimi, indi də Qərb mediasında rəsmi Bakının ünvanına sərt yazıların sayı çoxalıb.**

Ötən həftə Böyük Britaniyanın "Guardian" qəzeti Azərbaycan haqda daha bir geniş həcmli yazı dərc edib. "Qara qızılın idman parıltısına çevrilməsi" başlıqlı məqalədə Bakıda keçiriləcək Avropa Oyunları ərəfəsi siyasi vəziyyət təhlil olunub.

Qəzetin məqaləsində hakimiyyətin öz siyasətində idman kartından istifadə etdiyi, o cümlədən yarışların keçirilməsinə 6.5 milyarddan artıq vəsait xərclədiyi iddiaları yer alır. Həmçinin məqalədə hakimiyyətin sərt tənqidçilərinin saxta ittihamlarla həbs olunduğu, ölkədə yüzə yaxın siyasi məhbus olduğu bildirilir.

Qeyd edək ki, məqalə kifayət qədər geniş və sərt tənqidi mahiyyətlidir, bir sıra məqamlara toxunulub. Maraqlıdır ki, artıq ənənə halına almış qaydada hakimiyyət mediası məqaləyə "cavab" verərkən yenidən müxalifəti, QHT-ləri ittiham edib. Hakimiyyət mediasının iddiasına görə, bu cür Azərbaycana yönəlmiş tənqidi məqalələrin məlumat bazasını təşkil edən fikirləri xarici mətbuata yerli müxalifət və QHT fəalları ötürür. Doğrudanmı, bu cür yazıların yazılmasında istifadə olunan məlumatları xarici mətbuata yerli müxalifətçilər ötürür?



**Müsavat Partiyasının üzvü Tural Abbaslı deyir ki, indi müxalifətçilərin xarici mediaya məlumat ötürməsinə gərək yoxdur. Dünya mediasının ölkədən baş verənlərdən xəbərdar olduğunu qeyd edən T.Abbaslıya görə, Qərb mətbuatının müxalifətdən sifariş alması mümkün deyil:** "Əvvəla, onu soruşmaq lazımdır ki, müxalifət hansı məlumatları ötürür? Əgər müxalifətin ötürdüyü iddia olunan məlumatlar yalandırsa, hakimiyyət niyə narahat olur? Əgər yox, bu məlumatlar doğrudursa, o zaman günah elə hakimiyyətdədir və tənqidlər haqlıdır. Həm hakimiyyət özlərinin nəzarətində saxladığı mətbuat orqanları ilə Qərb mətbuatını eyniləşdirməməlidir. Çünki Qərb mətbuatı informasiyaları siyasi sifarişlə yazmır və məlumatın dəqiqliliyini yoxlamamış yayımlamır. 21-ci əsrdə Azərbaycan və ya hansısa digər avtoritar dövlətdən məlumat ötürməyə belə ehtiyac yoxdur. Çünki qloballaşan dünyada sosial şəbəkələr və internet vasitəsilə hər şeyi öyrənmək mümkündür".

**T.Abbaslının fikrincə, hakimiyyətin bu cür mövzularda müxalifəti günahlandırması ənənəvi hal alıb və heç bir ciddi əsasları yoxdur:** "Deməzdim ki, Azərbaycan müxalifəti xarici mətbuata məlumat ötürür, ən azı məndə belə məlumat yoxdur. Qəbul olunmuş ənənədə isə adətən dünyaca məşhur mətbuatlar belə məlumatları verərkən beynəlxalq və yerli QHT-lərin hesabatlarına istinad edir. Bu hesabatların obyektivliyi isə heç kəsdə şübhə doğurmur. Odur ki, Azərbaycan hökuməti daxildə "satqın və xain" axtarmaqdansa, dövləti demokratik prinsiplərlə idarə etməyə çalışsın".

❑ **KƏNAN**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Rusiya Ermənistan qoşunlarını Qarabağdan çıxartmağa hazırlaşır?

## Elmar Məmmədyarovun Moskvaya qəfil səfəri və bağlı qapılar arxasındakı Qarabağ danışıqlarının pərdəarxası; diplomatik mənbə Riqa sammitindən sonrakı yeni situasiya haqda ilginc faktlar açıqladı...

**Avropa İttifaqının Şərq Tərəfdaşlığına üzv ölkələrinin Riqa sammitindən dərhal sonra Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun Rusiyaya səfər etməsi birmənalı qarşılanmayıb. Xəbər verildiyi kimi, nazir rusiyalı həmkarı Sergey Lavrovla bağlı qapılar arxasında danışıqlar aparıb.**



Keçirilən görüşün detalları tam açıqlanmasa da, jurnalistlər üçün brifinqdə səslənən fikirlər Qarabağ mövzusunun aparıcı olduğu təsəvvürünü yaradır. “Mən Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Rusiyanın paylaşdığı optimist fikirləri bölüşürəm” - Məmmədyarov bildirib. “Dağlıq Qarabağ münaqişəsi problemini həll etmək lazımdır”,- deyə nazir qeyd edib və deyib ki, həll üçün artıq zaman yetişib. (modern.az)

**XİN başçısının sözlərinə görə, iki gün ərzində Dağlıq Qarabağ münaqişəsi ilə bağlı əhəmiyyətli müzakirələr aparılıb.** “Biz həll prosesi üçün bütün imkanlı detalları nəzərdən keçirmişik”. Virtualaz.org isə Rusiya rəsmi KİV-lərinə istinadən xəbər verir ki, nazirlər danışıqların yekunlarına dair bir sıra sənədlər imzalayıb. Onlardan birincisi Rusiya və Azərbaycan xarici işlər nazirlikləri arasında 2015-2016-cı illər üçün məsləhətləşmə planıdır. Görüşün mətbuata açıq hissəsində nazirlər iki ölkə arasında fəal siyasi dialoqdan danışıblar, bildiriblər ki, bu dialoq ikitərəfli əməkdaşlığa dair istisnasız olaraq bütün məsələlərin müzakirəsinə imkan verir.

**“Sizi Moskvada salamlamaqdan şadam. Bakıda insan həyatına son qoyan yanğınla bağlı başsağlığı çatdırmaq istəyirəm. Rəsmi səfəriniz zamanı danışıqlar aparmaq imkanını qiymətləndiririk. Bizim qarşımızda rəhbərlik tərəfindən qoyulmuş dəqiq vəzifələr var. Rusiya və Azərbaycan prezidentləri müntəzəm olaraq görüşürlər, onların arasında konstruktiv dialoq var və bu dialoq istisnasız olaraq bütün məsələlərin həlli üçün şərait yaradır”** - Lavrov bildirib. Öz növbəsində E.Məmmədyarov bildirib ki, danışıqlar zamanı ikitərəfli əməkdaşlığın bütün aspektlərini müzakirə edəcəklər.

***

Azərbaycan tərəfinin Riqa sammitinin nəticələrindən narazı qalması fonunda Moskvanın isti jestlərlə davranması diqqət çəkir. Qeyd edək ki, dünən rəsmi Bakı sammitdə onu narazı salan məqamlarla bağlı mövqeyini də açıqlayıb. XİN-in “Şərq Tərəfdaşlığı” Proqramının Riqada keçirilən zirvə toplantısının yekun bəyanatı ilə əlaqədar açıqladığı xüsusi rəydə Qarabağ məsələsində Avropa Birliyindən aydın və birmənalı mövqe istənilir. **“Bu münaqişənin həllinin əsasını Azərbaycanın ərazi bütövlüyü və suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını bir daha təsdiq edən və Azərbaycanın bütün işğal olunmuş ərazilərindən erməni işğalçı qüvvələrinin dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 822 (1993), 853(1993), 874 (1993) və 884 (1993) saylı qətnamələri təşkil edir. Azərbaycan Respublikası Avropa İttifaqı tərəfindən bu qətnamələrə ciddi şəkildə riayət edilməsi və onların həyata keçirilməsinin təmin edilməsi istiqamətində birmənalı və qəti addımların atılmasını gözləyir”** - rəydə qeyd olunur.

***

Bir sıra müşahidəçilər hesab edir ki, Rusiya Riqa sammitində Azərbaycanın haqlı iradlarını həm də özünün maraqları baxımından - Qərblə konfrontasiya şəraitində olması ilə əlaqədar - tamamilə qəbul etdiyi üçün bu fürsətdən yararlanmaq istəyir. Üstəlik, Kreml özünün forpostu olan Ermənistanın ikili oyun oynamasından heç də məmnun deyil. Bu nüans da bir sıra müşahidəçilərin diqqətindən qaçmayıb.

Qeyd edək ki, işğalçı ölkə Riqa sammitində Azərbaycandan fərqli olaraq prezident səviyyəsində təmsil olundu. Ancaq son nəticədə iştirakçı dövlətlərin qəbul etdiyi bəyanatla “Şərq tərəfdaşlığı” ölkələrinin ərazi bütövlüyü və suverenliyinə münasibətdə öhdəlik götürülməsini bir daha ifadə edən sənədi imzaladı. Hesab edilir ki, faktiki olaraq bununla İrəvan Azərbaycanın ərazi bütövlüyünü tanıdığını təsdiqləmiş oldu.

Riqa sammitinin yekun bəyanatında Azərbaycanın maraqlarına cavab verən əsas məqamları isə ermənilər öz bildikləri kimi yozur. Əslində Avropa İttifaqı və "Şərq tərəfdaşlığı" ölkələrinin 21-22 may 2015-ci il tarixində Latviyada keçirilmiş iclasında qəbul edilmiş Riqa bəyannaməsində Sərkisyanın Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyi qənaətinə də gəlmək olar.

Riqa bəyannaməsinin 3-cü maddəsində qeyd olunur: **a)** “Avropa İttifaqı bütün tərəfdaş dövlətlərin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə dəstəyinə münasibətdə öhdəliyinə sadiqdir”. Yəni Avropa İttifaqının tərəfdaş dövlətlərdən biri kimi Azərbaycanın da ərazi bütövlüyü və suverenliyinə dəstəyini ifadə edir. Eyni zamanda bəyanatın 3-cü bəndində 1975-ci il Helsinki Yekun Aktı və 1990-cı il ATƏT-in Paris xartiyası, eləcə də BMT nizamnaməsinin prinsip və müddəalarına tam sadiqlik ifadə olunur. 1975-ci il Helsinki Yekun Aktı, Paris xartiyası və BMT nizamnaməsi dövlətlərin ərazi bütövlüyü və suverenliyinə qarşı təcavüzü, güc tətbiq edərək ərazilərin əldə edilməsini qəbuledilməz hesab edir və ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığını təsbit edir.

**b)** Riqa bəyannaməsinin 5-ci maddəsində regionda olan münaqişələrin ən tez zamanda beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinin vacibliyi vurğulanır. ATƏT-in Minsk Qrupunun, eləcə də prezidentlər səviyyəsində olan səylərinə və 2009-cu ildən qəbul olunmuş qətnamələrinə tam dəstək ifadə olunur. 2009-cu ildən etibarən ATƏT-in Minsk Qrupu tərəfindən qəbul edilmiş qətnamələrdə isə əsasən mövcud status kvonun qəbuledilməzliyi vurğulanır. Mövcud status kvonun əsasını isə işğal və təcavüz təşkil edir. Onun dəyişdirilməsi üçün ilk növbədə işğal və təcavüz aradan qaldırılmalıdır.

Düzdür, erməni tərəfi həyasızcasına iddia edir ki, “Dağlıq Qarabağ heç vaxt Azərbaycanın tərkib hissəsi olmayıb”. Ancaq bunun nə dərəcədə səmsəm iddia olduğunu anlamaq üçün beynəlxalq səviyyədə qəbul olunan sənədlərə baxmaq sadəcə vaxt itkisidir, əcnəbilər də bunu yaxşı anlayır. Hesab olunur ki, Sərkisyan hakimiyyəti Riqadakı uğursuzluğunu bu əcaib yanaşma ilə ört-basdır etmək istəyir və bəyanat da



sadəcə daxili auditoriyaya hesablanıb. Belə yanaşma da var ki, Ermənistanın Riqa sammitinə prezident səviyyəsində qatılması və xüsusi canfəşanlıq etməsi həm də ondan irəli gəlir ki, Sərkisyan Rusiyanın təzyiqini açıq hiss edir və ona görə də ikili oyunu sürətləndirir.

Diplomatik mənbələrdən aldığımız məlumata görə, Ermənistan Riqa sammitinin yekun sənədini imzalamaya bilərdi. Ancaq Rusiyanın təzyiqi ilə İrəvan məhz Avropa İttifaqının Riqa sammitinin yekununda qəbul edilmiş sənəddə Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə dəstəyini ifadə etməyə vadar olub.

**“Rusiya bununla yalnız Sərkisyan iqtidarını çıxılmaz durumla üz-üzə qoymaq istəməyib, üstəlik, Moskvanın Qarabağla bağlı əlavə planları var. Bu da ona dəlalət edir ki, Rusiya artıq Ermənistanı öz qoşunlarını işğal olunmuş Azərbaycan ərazilərindən çıxarmağa hazırlayır”** - deyə, diplomatik qaynağımız israrla bildirdi.

Elə buradaca xatırlatmaq istərdik ki, bir müddət öncə Rusiya XİN başçısı Lavrov Qarabağ münaqişəsinin həllinin artıq yetişdiyini demişdi. Ona görə də hesab olunur ki, Azərbaycan XİN başçısının bu ərəfədə, sammitdən dərhal sonra Rusiyaya səfər etməsi heç də təsadüfi deyil. **“Nazirlərin Moskva görüşündə də Ermənistanın işğal olunmuş Azərbaycan ərazilərindən öz qoşunlarını çıxartması məsələsinin geniş müzakirə obyekti olduğu şübhə doğurmur”** - mənbə qeyd edir.

***

Lakin səslənən nikbin fikirlərlə yanaşı, ötən illərin praktikasından çıxış edərək Rusiyanın Qarabağ münaqişəsinin həlli ilə bağlı müsbət addımlarına şübhə edənlər də az deyil. Politoloq Arzu Nağıyev Məmmədyarovun Rusiya səfərinin Qarabağ məsələsinin həllində müsbət dəyişikliklərlə nəticələnəcəyini inandırıcı saymır: **“Ola bilsin ki, xarici diplomatiya sahəsində nəsə bir irəliləmə olsun, Avropa Oyunları ilə əlaqədar müəyyən protokol qaydaları müzakirə edilsin. Riqa sammitinin ərazi bütövlüyü ilə bağlı məsələlər və daha doğrusu, narazılıqlar da Ukrayna məsələsinə bir, Azərbaycana başqa cür yanaşmasından irəli gəldi. Bundan başqa, Roqozin və Narışkinlə də görüşlər planlaşdırıldığını nəzərə alsaq, yəqin ki, əsas məsələlərin siyasi və ordu quruculuğu ilə bağlı olduğunu düşünmək olar...”**

***

Riqa sammitində Azərbaycanı narazı salan digər bir məqamla bağlı da məlumatlar əldə etmişik. Əslində burada ikinci bir oyunun oynanıldığını da demək mümkündür. Burada söhbət Qarabağ münaqişəsinin tənzimlənməsində əsas rol oynamalı olan Qərb ölkələrinin birindən - Fransadan gedir. Bir daha diplomatik mənbələrdəki qaynaqlarımıza istinad edək. **“Sammitin yekun bəyannaməsində əslində 2008-ci ildə V.Putinin iştirakı ilə Azərbaycan-Ermənistan prezidentlərinin qəbul etdikləri Mayindorf bəyannaməsinə istinad olunmalı idi. Həmin bəyannamədə isə münaqişənin həlli ilə əlaqədar təkcə Minsk Qrupunun sənədlərinə deyil, digər beynəlxalq təşkilatların da sənədlərinə istinad olunur. Fransızlar isə məhz Mayindorf sənədinə istinada imkan verməmişlər və elə narazılığın bir səbəbi də bu idi. Digər sənədlər dedikdə, ilk növbədə BMT qətnamələri nəzərdə tutulurdu. Bu da ona dəlalət edir ki, fransızlar həm də Rusiyanın müəllifi olduğu sənədin dilinin burda əks olunmasına imkan vermədilər”** - mənbə bildirir.

***

Məhz bu ərəfədə Xəzərdə Rusiya və Azərbaycanın ilk dəfə genişmiqyaslı hərbi təlimlərə başlaması, Rusiya prezidentinin Avropa Oyunlarının açılışında iştirak qərarı verməsi, Azərbaycanın Moskvadakı elçisi Polad Bülbüloğlunun təltif edilməsi də Bakı ilə Moskvanın münasibətlərinin yeni mərhələyə adladığı görüntüsünü yaradır. Ümid edək ki, bu görüntü ötəri olmayacaq və Azərbaycanın işğal altındakı ərazilərinin azad olunması istiqamətində ilk ciddi addımlar müşahidə olunacaq.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

# Eynicinsli nikah iddiası SOCAR rəhbərliyini dilə gətirdi

## “Bizdə elə adam çalışmır”

**Dünənki günün səs-küylü xəbərlərindən biri SOCAR-ın müfəttişi olduğu iddia edilən Kamal Eynullayevin qızı Elnarə Eynullayevanın ABŞ senatorunun müşaviri olan qadınla nikaha girməsi idi. Xəbərlərə görə, eynicinsli nikah Massaçusets ştatının Kuinsi şəhərində baş tutub. Bundan başqa, Elnarə Eynullayeva və Rozali Hyuz Fatsionun təntənəli nikah mərasimində şahid qismində Massaçusets ştatından senator Maykl C. Barret iştirak edib. Bu toy bir çox amerikalı jurnalistlərin diqqətini cəlb edib, hətta nüfuzlu The New York Times da hadisə barədə yazıb.**



Rozali Fatsionun 32 yaşı var və o, senator Barretin hüquq müşaviridir. Onun atası İosif Fatsio Kembric Universitetinin idarələrindən birində vitse-prezidentdir.

Elnarəyə gəldikdə isə onun 28 yaşı var, «Trinitiy Partners»də səhiyyə iqtisadiyyatı üzrə mütəxəssis işləyir. O, Massaçusets Universitetini əla qiymətlərlə bitirib və Konnektikut ştatında magistr dərəcəsi alıb.

Elnarə Eynullayeva Bakıda Kamal və Tünzalə Eynullayevaların ailəsində dünyaya göz açıb. Tünzalə Eynullayeva hazırda Massaçusetsdə yaşayır və dəri materiallara qulluq üzrə Dilaura Natuarls adlı kiçik şirkət açıb.

Elnarənin atası Kamal Eynulla isə SOCAR-da müfəttiş işləyir. Bu, Elnarənin ilk nikahı deyil. Birinci boşanma ilə başa çatıb.

SOCAR həmcinsi ilə ailə həyatı quran qızın atası ilə bağlı məlumat yayıb. SOCAR media orqanlarına yaydığı məlumatda göstərib ki, şirkətdə Kamal Eynullayev adlı şəxs işləmir. Şirkətin yaydığı məlumatda deyilir: **“Bəzi kütləvi informasiya vasitələrində yayılmış məlumatla əlaqədar bildiririk ki, SOCAR-ın strukturuna daxil olan müəssisələrdə Kamal Eynullayev və yaxud Kamal Eynulla adında bir şəxs işləmir”.**

Qeyd edək ki, «Nyu York Tayms»ın yaydığı məlumata görə, SOCAR-ın müfəttişi olduğu deyilən Kamal Eynullayevin qızlarından biri - Elnarə Eynullayeva dünən Amerikanın Massaçusets ştatının Biotexnologiya şurasının maliyyə və administrasiya üzrə vitse-prezidentinin qızı Rozali Hyus Fazio ilə nikaha daxil olub. Rozali Feysbukda ötən ilin iyununda nişanlanması ilə bağlı xəbər də paylaşıb. O, Elnarə ilə fotolarını paylaşaraq belə yazıb: “Hey, uşaqlar, mən qadınla evlənməyə hazırlaşıram! Həyatımı və bu qadını sevirəm!”


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini

**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarnın dərmansız müalicəsi

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra

**Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**


# “Oyunlar zolağı”na girən sürücülər 40 manat cərimə olunacaq

**Baş Dövlət Yol Polisi İdarəsi Avropa Oyunları ilə əlaqədar nəqliyyatın hərəkəti üçün nəzərdə tutulan xüsusi zolaqların tələblərini pozan sürücülərə hansı cəza verilməsinə dair açıqlama verib.**

Avtosfer.az xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyi (DİN) Respublika Baş Dövlət Yol Polisi İdarəsinin (BDYPİ) İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovniki Kamran Əliyev oxu.az-a bildirib ki, şənbə günündən etibarən artıq həmin zolaqlar üzrə 3.2 hərəkəti qadağan edən nişanların qoyulması prosesinə start verilib.

Kamran Əliyev qeyd edib ki, Bakıda müəyyən edilən yollarda “Avropa Oyunları” zolaqları artıq çəkilib, eyni zamanda həmin zolaqlar üzrə hərəkəti qadağan edən müvafiq yol nişanları qoyulub.

“Mayın 29-dan etibarən Avropa Oyunları ilə əlaqədar müəyyən edilən nəqliyyat vasitələrindən savayı digər avtomobillərin həmin zolağa çıxmasına qadağa qoyulacaq. Hələlik isə yol nişanlarının qoyulması prosesi davam etdiyindən yollarda nəqliyyat sıxlığının yaranmaması məqsədilə sürücülərə o zolaqlara çıxmağa heç bir qadağa qoyulmayıb. Lakin sadalanan işlər tam bitəndən sonra digər avtomobillərin həmin zolağa çıxmasına icazə verilməyəcək, qaydanı pozanlar isə İnzibati Xətalar Məcəlləsinin 151.1-ci maddəsinə müvafiq olaraq yol nişanlarının və ya yolların hərəkət hissəsinin işarələrinin tələblərinə riayət edilməməsinə görə 40 manat miqdarında cərimə olunacaqlar”.

K.Əliyev əlavə edib ki, I Avropa Oyunları ilə əlaqədar müəyyən edilən küçə və prospektlərə əlavə yol patrul inspektorları təhkim olunacaq, həmin yollara daim nəzarət olunacaq.



# Azərbaycanda ilk dəfə keçirilən “İmagine Cup” müsabiqəsinin qalibləri müəyyənləşib

**“Microsoft Azərbaycan” və “Nar” operatorunun dəstəklədiyi layihə innovativ texnologiyalar sahəsindəki yerli istedadların müəyyən edilməsində mühüm rol oynayacaq**

**Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Yüksək Texnologiyalar Parkının dəstəyi ilə, “Microsoft Azerbaijan” və “Nar” rabitə operatoru tərəfindən Azərbaycanda ilk dəfə keçirilən “Imagine Cup” innovasiya müsabiqəsinin Milli Final mərhələsinin qalibləri müəyyənləşib.**

nar
Gəlin birlikdə böyüyək

**Milli seçim turu və onlayn yarımfinalı uğurla keçən 20 komanda milli finala vəsiqə qazandı. Ümumdünya finalında olduğu kimi milli finalda da müsabiqədə iştirak edən ali və peşə təhsil müəssisələrinin tələbələrindən ibarət komandalar üç nominasiya üzrə yarışdılar: “İnnovasiya”, “Oyunlar” və “Dünya vətəndaşlığı”. Peşəkar münsiflər tərəfindən qiymətləndirilən layihələr arasından hər üç nominasiya üzrə qaliblər müəyyən edildi. Belə ki, milli finalda “İnnovasiyalar” nominasiyası üzrə “NoObs” komandası, “Oyunlar” nominasiyası üzrə “IDEAlists” komandası, “Dünya vətəndaşlığı” nominasiyası üzrə isə “Mar-Tech” komandası qalib gəldi. Sözügedən komandalar artıq onlayn yarımfinala qatılaraq, layihə sənədlərini beynəlxalq münsiflərə təqdim ediblər. Ümumdünya finalında iştirak edəcək komandaların adları iyunun 1-də elan olunacaq. Müsabiqənin sonunda qaliblərə 50 min, 10 min və 5 min ABŞ dolları məbləğində pul mükafatları təqdim olunacaq və onlar qlobal innovasiya akselerator proqramlarına qoşulacaqlar.**

**Qeyd edək ki, müsabiqənin keçirilməsində məqsəd Azərbaycan tələbələrinin istedadını üzə çıxarmaq, onların sabahın bazar tələblərinə hazırlıqlı mütəxəssis kimi yetişdirilmələrinə şərait yaratmaq idi.**


## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34


# Müğənni Röya həbs oluna bilər

## Vəkil onun “razborka”ya görə cavab verməli olduğunu deyir

**Bu günlərdə mətbuatda, sosial şəbəkələrdə Azərbaycanın tanınmış müğənnisi Röya Ayxanın “İnstagram” səhifəsində onu təhqir edən şəxslə “razborka” etməsi əsas müzakirə mövzularından biri oldu.**

Belə ki, bir neçə gün bundan əvvəl müğənni sosial şəbəkədə Elnur adlı şəxs tərəfindən söyüldüyünü yazıb. Daha sonra müğənni qeyd edib ki, polisə müraciət edərək həmin şəxsi tapıb. Bundan sonra Röya Ayxan adıçəkilən şəxslə görüşərək ondan söyüşlə bağlı hesabat istəyib. “Razborka”ya iki nəfər yaxını ilə gedən müğənni söhbəti gizli kameraya çəkib.

Olaylardan sonra görüntüləri “İnstagram”dakı şəxsi səhifəsində paylaşan Röya bu sözləri yazıb: “Mənim əzizlərim, İnstagramda şəxsiyyətimi təhqir edənlər, elə bilirsiniz dərəbəylikdi? Kim hansı qiyməti istəyir onu da qoyur mənə, sonra da bax belə tapıb gətirirsən, özü də polis əliylə. Deyir ki, dediyim sözlər anama, bacıma aiddir. Vay-vay, bu dırnaqarası bəzi kişiciklərin axırı hara gedir görəsən? Elnur Orucov, axı sənə lazım idi, niyə axı o sözləri ananıza deyirsiniz? Axı səni zülmlə böyüdür ki, sizin kimi ”......" Bu ölkədə heç kəs cinayətdən yayına bilməz. Hamı cavabını verəcək mütləq!"

Müğənninin bu hərəkətini alqışlayanlar olsa da bu cür “razborka”ya görə onu tənqid edənlər, hiddətlənənlər də var. Hətta bəziləri mətbuat vasitəsilə Röyanın bu hərəkətinə görə qanun qarşısında cavab verməsini tələb ediblər. Onların sözlərinə görə, müğənni bu cür “razborka”dansa onu təhqir edən şəxs barəsində hüquq-mühafizə orqanlarına müraciət etməli idi.

«Röya Ayxan tutularaq Daxili İşlər Nazirliyinin müvafiq şöbəsinə aparılmalı və əməlinə görə cavab verməlidir".

**Bunu AzVision.az-a açıqlamasında tanınmış vəkil Adəm Məmmədov deyib. O, məşhur müğənninin sosial şəbəkələrdə yayılan videosunun qanunvericiliyi pozduğunu söyləyib. A.Məmmədov Röya Ayxanın bu əməlinə görə ölkənin ən böyük güc strukturlarının rəhbərlərinə müraciət edib:** “Röya Ayxan məşhur müğənnidir. Amma hər kəs qanun qarşısında bərabərdir. Yayılan həmin video qanunsuz və gizli yolla çəkilib. Çəkilişdə iştirak edən iki şəxs çox güman ki, Röya xanımın adamlarıdır. Təhqir edilən oğlan çəkiliş meydanına gətirilən zaman çoxlu qanunsuz hərəkətlərə yol verilib. Söyüşlərin söyülməsi ilə də xeyli qanunsuz əməllərə yol verilib”.

**Vəkil Röya Ayxanın cəzalandırılması üçün daxili işlər naziri Ramil Usubov və baş prokuror Zakir Qaralova müraciət edib:** “Vətəndaşı söyüşləri özünə qaytarması üçün məcbur etmək və gizli video çəkmək Azərbaycan Respublikasının Konstitusiyasına böyük bir hörmətsizlikdir. Mən bu hərəkətlə bağlı daxili işlər naziri cənab Ramil Usubov və baş porkuror Zakir Qaralova müraciət edirəm. Bu elə-belə çəkiliş deyil. Həmin şəxs tanınmış adamdır. Onun belə bir hərəkətə yol verməsi Konstitusiyamıza xələl gətirir.

Xahişim ondan ibarətdir ki, Röya Ayxan və çəkilişdə iştirak edən digər şəxslər tutularaq DİN-in müvafiq orqanlarına gətirilsinlər. Və onların bu gəlişləri kütləvi informasiya vasitələrində işıqlandırılısın.

İstintaq Röya xanımın əməlində hansı cinayət əməlinin olduğunu müəyyən etməlidir. Onun bu əməli cinayət məsuliyyəti yarada bilər".

❑ Xalìdə GƏRAY


## Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (051) 984-90-63**

**Qəbələdə çox mənzərəli yerdə 60 sot sahəsi olan bir bağ satılır. Bağda 75 ədəd meyvə ağacı var. Hündür dağın düz ətəyindədir. Kvadrat şəklindədir. Qazı, suyu, işığı var. Bakı-Qəbələ yolundan 800 metr məsafədədir. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**

**Qəbələ rayonunda tam işlək vəziyyətdə olan parket fabriki bütün avadanlıqları ilə birlikdə satılır. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**

**Təcili! Mehdiabadın gözəl mənzərəli və hündür yerində 3.5 sot torpaq sahəsi satılır.**

**Bütün sənədləri qaydasındadır. 1 sot qiyməti 7500 və 3.5 sot cəmi 26250 AZN.**

**(055) 740-25-64 ANAR**

**Binəqədi-Xırdalan şosesi yaşayış massivi, Respublika Dövlət Yol Polisinin yaxınlığında əlverişli qiymətə 4 sot torpaq sahəsi satılır. 2,5 metr hündürlükdə daş hasarın içərisində, əla yerdə. İşıq, qaz, su 15 m məsafədə yerləşir. Yenilənmiş kanalizasiya xətti, meyvə ağacları var. Yol asfalt-beton.**

**Tel: (050) 614-40-24**

**Özəl tibb müəssisəsinə 3-5 saata gündə işləmək üçün təqaüddə olan, damara iynə vura bilən tibb bacısı tələb olunur.**

**Tel: (012) 437-88-05 (13:00-dan sonra)**

**(050) 312-72-92 (13:00-dan sonra 17:00-dək)**

YENİ MÜSAVAT
N 113 (6141) 26 may 2015



# “Penoplast və poliuretan üzlüklər binalara vurmaq üçün deyil”

## Təhlükəli, tezalışan materialla evlər 5 ildir üzlənirmiş; Vüqar Bayramov: “Binalarda təhlükəsizlik qaydalarının yoxlanması üçün xüsusi nəzarət komissiyasının yaradılmasına ehtiyac var”

**Bir neçə gün əvvəl paytaxtda yanan bina üzlənmiş binalarda həyat üçün təhlükə olduğunu bir daha gündəmə gətirib. Qeyd edək ki, paytaxtda binaların penoplastla üzlənməsi beş il əvvəldən başlanıb. Bildirilir ki, o zaman materialı Azərbaycanda bir çox şirkət, o cümlədən TİVİ MMC şirkəti təklif edib. Klassik fasad üçün yüngül, ucuz və tez başa gələn bu material hamıya tanışdır.**

**Memar Urfan Məmmədovun** sözlərinə görə, adətən televizor alanda qoruyucu ağ baloncuqlardan ibarət olan materialla küncləri bərkidilmiş olur: “Penoplast həmin materialdır. Artıq tikinti sektoruna da girən bu material həm fasad örtükləri, həm mərtəbəarası örtüklər, həm də dam örtüyü kimi istifadə olunur. Fasad örtüyü kimi xoşum gəlməyən yeganə qüsur kimi onu deyə bilərəm ki, bina fasadı *(xüsusilə yaşayış binalarında)* gərək təbii materiallardan olsun, bina "nəfəs" alsın. Ümumiyyətlə, təbii materiallar nə qədər özündən müsbət enerji verirsə, süni materiallar da bir o qədər radiasiya verir. Penoplast ictimai binalarda istifadə olunsa, çox rahat başa gələn vasitədir. Amma yaşayış üçün inanıram ki, ziyanlıdır. Qiymət baxımından çox sərfəlidir. Divara kafel-metlax yapışdırıcısı ilə bərkidilir, divarla material arasında hava qatı qalmır. Daşla qiymət müqayisəsi çox ucuz başa gəlir".

**O qeyd edib ki, yanan binada yanma səbəbi kimi materialın düzgün seçilməməsi göstərilir:** “Təxminən 5-6 il əvvəl bu materialın ölkəmizə gəldiyi ilk günlərdə sözügedən materialla tanış olmuşdum və araşdırma nəticəsində ziyanlı olmasını aşkar edib bu işlə məşğul olan şirkəti tənqid etmişdin. Bundan sonra çoxsaylı telefon zəngləri, hədə-qorxular aldım, amma yenə də sözümün axırına kimi gedə bildim. Həmin məsələdən sonra şirkət bağlandı. Daha sonra materialın kütləvi istehsalı və binalara vurulması başlandı”.

Qeyd edək ki, üzlənən binada penoplastdan deyil, poliuretan adlı maddədən istifadə olunduğu bildirilir. Həmçinin paytaxtda penoplast istehsalı ilə məşğul olan şirkətdən bildirilmişdi ki, penoplast tezalışan material deyil. Əksər ekspertlər isə fərqli düşünür. Onlar penoplast və poliuretanın oxşar tərkibə malik olduğunu və yanğına davamlı olmadığını bildirirlər. Elə **U.Məmmədov da bildirir ki, bu iki material təxminən eyni məhsuldur:** “Amma hərəsinin öz standartları var. Memarlıqda istifadə olunan hər bir detal təhlükəsiz olmalıdır. Təhlükəsizlik əsas prioritetdir. İndi yanğınla bağlı versiyalardan biri budur ki, material fasaddan aralı olub, buna görə hava sirkulyasiyası yanğını gücləndirib”. Onun sözlərinə görə, Rusiyada penoplastdan binanın yalnız on faizinin üzlənməsinə icazə verilir.

**TİVİ MMC-nin saytında isə bildirilir ki, müasir bina üzlükləri 2009-cu ildə Bakıda qurulub:** “Yarandığı ilk gündən bəri tamamladığı proyektlərdə keyfiyyəti, sənəti və əxlaqi dəyərləri ön planda tutaraq öz mövqeyini qoruyub saxlayıb”. **Saytda bildirilir ki, əsasını pena polistrol piltələr təşkil edən yeni nəsil bina üzlükləri binanı yüksək keyfiyyətli izolyasiya edir. Bununla müştəri büdcəsinə 50 faizə qədər qənaət edə bilər:** “Belə ki, yayda daha az elektrik enerjisi ilə daha çox sərinlik əldə etməniz, qışda isə daha az yanacaqla daha çox istilik tələbatınızı ödəməniz təmin edər. Səhra və çöl iqlimi olan ərazilərdə xüsusilə test olunan bu üzlüklər keyfiyyətini dəfələrcə sübuta yetirib. Məsə massivi olan ərazilərdə, dəniz kənarlarında və digər yüksək rütubətli ərazilərdə 95 faizə qədər rütubətin qarşısını alır. Və rütubətin əmələ gətirdiyi kifi, bakteriyaları və sairi önləyir. Təbii aşınmalara qarşı tam dayanıqlıdır. Günəş şüalarından çatlamaz, yağış və qar sularından yuyulmaz, külək zamanı fiziki aşınmaya məruz qalmaz, yüksək dərəcəli şaxtadan donub çatlamaz. İstifadəsi çox sadədir. Kafel-metlak yapışdırıcısı ilə divara bərkidilir. Binaya yapışdırıldıqdan sonra istənilən rənglə boyana bilir. Binaya vurulması çox qısa bir zaman alır. Yüngül və elastikdir. Binaya ağırlıq etməz. Və hansısa xarici təsirə məruz qaldıqda qırılmaz, qısamüddətli deformasiyaya uğrayar”.

**Ekspertlər isə binaların üzlüklərinin sökülməsi məsələsinə aydınlıq gətiriblər. Ekspert Qubad İbadoğlu məsələ ilə bağlı bildirib ki, binaların üzlənməsi məqsədilə büdcə talanır:** “Son illər Bakı şəhərində binaların fasadlarının və dam örtüklərinin dəyişdirilməsi dövlət büdcəsinin investisiya bölməsinin dəyişməyən və hər il orta hesabla 180-220 milyon manat vəsait ayrılan maddələrindəndir. Bundan əlavə, regionların sosial-iqtisadi inkişaf proqramları çərçivəsində də hər bir rayon üzrə əsas xərc istiqamətlərindən biri inzibatı binaların abadlaşdırılmasıdır. Heç kəsə sirr deyil ki, bu məqsədlə ayrılan vəsaitlərin yalnız 10-15 faizi təyinatı üzrə xərclənir. On altı nəfər insanın həlak olmasına səbəb olan hadisənin baş verməsinin əsas səbəbi ölkədə mövcud olan rüşvətxorluq və dövlət büdcəsinin bu məqsədlə talan edilməsidir. Onun da başlıca günahkarları aidiyyəti dövlət strukturlarının rəhbərləridir. Odur ki, bu hadisə ciddi araşdırmalı və əsl günahkarlar cəzalandırılmalıdır”.

**Q.İbadoğlunun sözlərinə görə, binalara vurulan üzlüklərin sökülməsinə dair qərar mərkəzləşdirilmiş qaydada dövlət büdcəsi hesabına verilən sifarişlər əsasında podratçı təşkilatlar hesabına icra edilə bilər:** “Yaxud da bu məsələ zərərçəkənlərin iddiası əsasında hüquqi müstəvidə araşdırılaraq məhkəmə qərarı əsasında ona məsul olan və ya onu icra edən dövlət və özəl təşkilatlar həyata keçirilə bilər. Birinci halda, maliyyələşmə dövlət büdcəsi hesabına, ikinci halda məsul və icraçı təşkilatların xüsusi maliyyə mənbələri hesabına aparılmalıdır. Əgər dövlət büdcəsi hesabına həyata keçirilərsə, bu, əlavə olaraq 10 milyonlarla manat vəsait ayrılmasına gətirib çıxara bilər. Əslində burada insan amili və onun həyatına təhlükənin riski nəzərə alınmaqla onun maliyyələşdirilməsi dövlət büdcəsi və ya xüsusi vəsaitlər, məsələn, prezidentin və ya Nazirlər Kabinetinin ehtiyat fondları hesabına tez bir zamanda aparılmalıdır”.

**Ekspert Vüqar Bayramov isə qeyd edib ki, xərcinin hansı məbləğlə ifadə olunmasına baxmayaraq, yaşayış binalarına vurulan üzlüklərin qısa zamanda sökülməsi vacibdir. Onun sözlərinə görə, yanğın hadisəsi əslində yeni tikililərdə təhlükəsizlik qaydalarına nəzarətin gücləndirilməsi baxımdan bir mesaj olmalıdır:** “Eyni zamanda əvvəllər inşa edilən binalarda təhlükəsizlik qaydaların yoxlanması üçün xüsusi nəzarət komissiyasının yaradılmasına ehtiyac var. Bütün yeni inşa edilən binaların yenidən ekspertizadan keçirilməsi vacibdir. Üzlüklərin xərcini heç bir halda insanların həyatı ilə müqayisə etmək olmaz. Bir insan həyatı da bütün üzlüklərə xərclənən vəsaitlə müqayisə edilməməlidir. İnsan həyatının dəyəri üzlüklərə çəkilən xərclə heç zaman müqayisəyə gələ bilməz. Bütün hallarda, bu üzlüklərin sökülməsi iqtisadi deyil, təhlükəsizlik baxımdan qiymətləndirilməlidir”.

**Vüqar Bayramov bildirib ki, keyfiyyətsiz və tezalışan üzlüklərdən nə üçün bir sıra binalarda istifadəsi səbəblərinin də ətraflı araşdırılması vacibdir:** “Dövlət vəsaitinin nə üçün belə təhlükəli üzlüklərin alınmasına və istifadəsinə xərclənməsi səbəbləri aydınlaşdırılmalıdır və təbii ki, buna imkan yaradanların cəzalandırılmasına ehtiyac var”.

❑ **RÖYA**

# İki kanal arasındakı “alov sönmür”

## ATV ANS-ə cavab verdi, ardınca eks ANS-çini işə götürdü…

**ANS ilə ATV arasında sonuncunun aparıcısı Mətanət Əliverdiyeva mövzusunda başlanan qalmaqal səngimək bilmir. Son olaraq ANS kanalında ATV-nin “Gündəlik” verilişinin aparıcısı Mətanət Əliverdiyeva və ATV kanalı əleyhinə süjet hazırlanıb. ATV-nin “Həftə sonu” verilişində isə bu hücum cavabsız qoyulmayıb. ATV kanalının süjetində bildirilib ki, faciə baş verən günü ATV ilk olaraq efir proqramına dəyişiklik edib: “Şou proqramların yayımı dayandırıldı, hər iki radiomuzda musiqili-əyləncəli proqramlar ləğv edildi.**

Hadisə yerindən ən dolğun xəbərləri yerində canlı olaraq biz yayımladıq. Bu bizim peşə borcumuzdu. İllərdi ATV olaraq bu funksiyanı heç kimdən əksik, yox laiqincə yerinə yetirmişik, həmişə öndə olmuşuq. Bu dəfə də belə odu. Yanğının səbəbləri, dəyəri milyonlarla ölçülən villaların sahibləri kimlərdi kimi süjetlərimizi hər kəs izlədi. Dövlət başçısının səsləndirdiyi problemlərin üzərinə getməyimiz, öz işimizdə olmağımız, görünür, kimlərdəsə qıcıq yaratdı. Bu müddət ərzində ATV-yə hücümlar başladı. Səbəb aparıcımız Mətanət xanımın işlətdiyi yeddi sözdən ibarət bir cümlə idi.

Binanı ATV və ya Mətanət xanım yandırmamışdı. Ən acınacaqlısı isə odur ki, ATV-yə qarşı bu kampaniyaya qonşu kanallardan biri də qoşuldu. O da başa düşüləndi. Yanğından iki gün əvvəl bu başı bəlalı reytinq məsələsi həmin kanalın efirində geniş şərh olundu. Yanğından bir gün əvvəl isə Laçının işğalı günü yenə həmin kanalda aparıcıların reytinqə görə yerdəyişməsi canlı efirdə əsas müzakirə mövzusu oldu".

ANS ATV-nin bu açıqlamasına hələ cavab verməsə də, sonuncunun “atakları” davam edir. ANS-in keçmiş əməkdaşı, APA TV-nin sabiq baş direktoru Eldəniz Vəliyevə ATV-də redaktor vəzifəsi verilib. E.Vəliyev bu faktı aznews.az saytına təsdiqləyib. Bildirib ki, Mətanət Əliverdiyevanın aparıcısı olduğu “Gündəlik” verilişinin redaktoru kimi çalışmağa başlayıb.

Qeyd edək ki, Eldəniz Vəliyev uzun illər ANS televiziyasında çalışıb. APA TV yaranandan sonra isə ora baş direktor təyin edilib. Bir müddət sonra isə işdən azad olunub.

❑ **SEVİNC**

YENİ MÜSAVAT
Son səhifə
N 113 (6142) 26 may 2015

# 4 min dollara ev



Çinin Şanxay şəhərində 3D printerlərin köməyi ilə yeni ev inşa edilib. Bir inşaat şirkətinin hazırladığı evin qiyməti sadəcə 30 min yuan, yəni 4 min dollardır. Evi hazırlayan 3D printer də Çindəki şirkətlərdən birinin məhsuludur. 32 metr uzunluğu, 6,6 metr hündürlüyü və 10 metr eni olan printeri hazırlayan şirkətin sahibi yeni ev haqqında bu sözləri deyib: "3D printerlərlə hazırlanan evlər həm ekoloji, həm də iqtisadi baxımdan çox xeyirlidir. 3D ilə hazırlanan inşaatların sayını daha da artırmağa çalışacağıq. Bu hər kəsin ev sahibi olmasına yardım edəcək".



## Obama twitterdə rekord qırdı

Amerika prezidenti Barak Obama bir neçə gün əvvəl tvitter sosial şəbəkəsində POTUS adlı hesab açmışdı. Voice of Amerika internet saytının xəbərinə görə, Ağ Evdən edilən açıqlamaya görə, bu hesabdan yazılan statuslar və paylaşılan şəkillər birbaşa B.Obamaya aiddir. Obama bazar ertəsi günü Ağ Evə aid ipone markalı telefondan yazdığı statusda bu sözləri yazmışdı: "Salam Barak. Mən Barak. Həqiqətən! Altı il sonra nəhayət ki, öz hesabımı açmağa icazə verdilər". Obama bu hesabın köməyi ilə "Ginnesin Rekordlar Kitabı"na da adını yazdırıb. Məlumatlara görə, bu günə qədər tvitterdə qısa müddət ərzində bir milyon təqibçi qazanan Robert Dovney idi. Obama məşhur aktyorun rekordunu yeniləyib. Prezident yeni hesabında insanlarla birbaşa əlaqə yaratmaq şansı əldə edəcək. Amerikanın seçim kampaniyası zamanı açılan Barak Obama adlı tvitter hesabı da 59 milyon 300 min təqibçiyə sahib olduğu üçün ən çox izlənilən lider hesabı idi.

## 18 kiloluq qadın



Bir xətası ömrünün 10 ilini əlindən aldı. Ölüm ayağında olan qadının həyatını xilas etmək üçün hamı əlbir olub. Aktrisa olan 37 yaşlı Reycl Farrok 10 il öncə anoreksiyaya yaxalanıb. O, bir neçə artıq kilosu olduğunu düşünüb və pəhrizə başlayıb. Lakin arıqladığını görən qadın özünü saxlaya bilməyib və pəhrizini uzunmüddətli edib. Nəticədə Farrok 18 kq-a kimi düşüb. Gündən-günə əriyən aktrisa işini də itirib. Hərəkət belə edə bilməyən qadının işlərində kömək etmək üçün əri də işlərini atmalı olub. O, arvadını xilas etmək üçün əlindən gələni əsirgəmir. Sağlamlığını geri qazanmaq üçün var gücü ilə çalışan Reycl "YouTube"də bir video paylaşaraq xəstəliyin ağır nəticələrini izah edib.

## Dünyanın ən gözəl hotelləri



1. "Kolarbyn Eco-lodge" İsveç
2. "Kingston Treehouse" Cənubi Afrika
3. "Üzən otel" Zənzibar
4. "Hotel Kakslauttanen" Finlandiya
5. "Conrad Maldives Rangali Island" Rəngali adası
6. "Attrap Reves Hotel" Fransa
7. "Giraffe Manor" Keniya
8. "Plane Hotel" Kosta Rika
9. "Ağacda otel" İsveç
10. "Free Spirit Spheres" Kanada
11. "Hang Nga Guesthouse" Vyetnam
12. "Fairy Chimney Hotel" Türkiyə
13. "Wanderlust Hotel" Sinqapur
14. "Martin's Patershof Church Hotel" Belçika
15."Ascher Cliff" İsveçrə




## 3D möcüzəsi

2030-cu ildə Marsda istifadəyə veriləcək olan evlərin dizaynı 3D printerlərlə gerçəkləşdiriləcək. Bunun üçün bir yarışma başladan NASA ən yaxşı projeyə 2,25 milyon dollar mükafat verəcək. 3D formatında ev hazırlayan hər bir yarış iştirakçısına 50 min dollar veriləcək. Ən yaxşılar arasında birinci yeri tutan isə 2,25 milyon dolların sahibi olacaq. 3D printeri ilə hazırlanan evlər bu il Nyu-Yorkdakı Word Maker Fairdə (Dünta Maker Sərgisi) sərgilənəcək. Yarışma nəticəsində 2030-cu ildə Marsa göndəriləcək olan insanların qalacağı ən yaxşı ev seçiləcək. 26 sentyabrda başlayacaq olan yarışların birinci hissəsində evlərin xarici görünüşü hazırlanacaq. İlk hissəni qazanan 1,1 milyon dollar mükafat alacaq.




**QOÇ** - Zamanın nəbzini tutmaqda hələ də çətinlik çəkirsiniz. Tərslikdən lazımi adamların köməyindən də bəhrələnmirsiniz. Bəlkə papağı qarşınıza qoyub yaxşı-yaxşı düşünəsiniz?!

**BUĞA** - İşgüzarlığınız artıdığından qarşınıza qoyduğunuz məqsədlərin əksəriyyətini reallaşdıra bilərsiniz. Bəxtinizin gətirəcəyinə ümid edin. Nahardan sonra ovqatınız xeyli yüksələcək.

**ƏKİZLƏR** - "Hakim" olduğunuz bu dövrün maliyyə uğurunu görməyə başlayacaqsınız. Saat 13-16 arası bu istiqamətdə daha əlverişli şanslar qazana bilərsiniz. Qərarlarınızda qəti olun.

**XƏRÇƏNG** - Cərəyan edən bütün proseslərə reallığın gözü ilə baxın. Çünki indiki dünya fantaziyaları qəbul eləmir. Səfərə çıxmaq üçün olduqca münasib gün olsa da, büdcənizə görə hərəkət edin.

**ŞİR** - İş mane olmasa, səyahət və doğmalarla görüşmək üçün əlverişli vaxtdır. Maddi durumunuzda da nəzərəçarpacaq irəliləyişlər mümkündür. Bütün hallarda tənhalığa aludə olmayın.

**QIZ** - Təxminən saat 11-dən 15-ə qədər bəzi xoşagəlməzliklərlə rastlaşa bilərsiniz. Bu səbəbdən də həmkarlarınızla, rəhbərinizlə nəzakətli davranın. Yersiz mübahisələr zərərinizədir.

**TƏRƏZİ** - Ulduzların düzümünə görə bu təqvimdə hər şeydən əvvəl səhhətinizi qorumalı, şər işlərdən uzaq olmalısınız. Çalışın ki, hisslərinizi cilovlayasınız. Axşam sürprizlə rastlaşacaqsınız.

**ƏQRƏB** - Bu gün xırdaca mübahisəyə də getməməlisiniz. Əks halda, bəzi yaxınlarınızla aranızda soyuqluq yaranacaq. Situasiyaları kontrolda saxlasanız, axşam xoş ovqat qazanacaqsınız.

**OXATAN** - Peşəyönümlü fəaliyyətinizdə uğurlu nüanslarla qarşılaşacaqsınız. Perspektivli görüşləriniz də istisna olunmur. Əzmkarlığınızı artırsanız, qazanc da əldə edəcəksiniz.

**OĞLAQ** - O qədər də uğurlu gün deyil. Yalnız nahara qədər xırda nailiyyətləriniz ola bilər. Uzaq yola çıxmaq, riskli işlərə girişmək məsləhət deyil. Qida rasionunuzu zənginləşdirin.

**SUTÖKƏN** - Maddi durumunuzda irəliləyişlər gözlənilir. Lakin hansısa vacib məsələdə yanlış qərar çıxarmaq ehtimalınız da var. Odur ki, proqnozumuzu oxuyan kimi tədbir görməyə hazırlaşın.

**BALIQLAR** - Sövdələşmə aparmaq üçün şanslı vaxtdır. Amma gərək danışıqlar ikitərəfli istiqamətdə baş versin. Məxfi təkliflərə başdansovdu yanaşmayın. Ciddi işləri bu günə salmayın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 11 yaşında 3 diplom



Amerikanın Sacrmaneto şəhərində yaşayan 11 yaşlı Tanış Abraham adlı uşaq 3 diplom alaraq universitetdən məzun olan ən gənc tələbədir. Riyaziyyat, fizika və xarici dillərə görə 3 diplom alan Abraham 10 yaşında orta məktəbi bitirib. Azyaşlı uşağın 4 yaşından bəri "Mensa" yüksək məntiq cəmiyyətinin üzvü olduğu deyilir. Yerli media orqanlarına müsahibə verən Abraham "universitetdəki ilk günümdə heç həyəcanlanmadım, mənim üçün adi gün idi" deyərək özünə olan inamını göstərib.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Elşad MƏMMƏDLİ
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 5.300